QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 154 (5626) 16 **avqsut** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Tacikistan-Azərbaycan münasibətləri getdikcə inkişaf edir

## *Əldə olunan razılaşmalar çoxşaxəli tərəfdaşlığı yeni məzmunla zənginləşdirəcək, daha yüksək və keyfiyyətli səviyyəyə çıxaracaq*

Səh 2




Xəzəryanı ölkələr arasında əməkdaşlıq bundan sonra da inkişaf edəcək



3

"Konvensiya Xəzəryanı dövlətlərin fəaliyyətində proqnozlaşdırılan sivil davranışı özündə ehtiva edir"



8

"Xudat" sərhəd dəstəsinin "Yuxarı Tahircal" sərhəd zastavası kompleksi istifadəyə verilib



4

Ermənistanda un bahalaşdı



4

Azərbaycançılıq məfkurəsinə bağlı böyük sənətkar



10

Türkiyəyə qarşı ABŞ sanksiyaları - Vaşinqton təklənirmi?



11

14

"REAL" düşərgədaxili hücuma keçəcəkmi?




13

Paşinyan hakimiyyətini və Ermənistanı itirmək üzrədir



16

"İnyesta "Barselo-na"ya qayıdacaq"



# Tacikistan-Azərbaycan münasibətləri getdikcə inkişaf edir

## Əldə olunan razılaşmalar çoxşaxəli tərəfdaşlığı yeni məzmunla zənginləşdirəcək, daha yüksək və keyfiyyətli səviyyəyə çıxaracaq







***Xarici siyasətində iki və çoxtərəfli çərçivədə əməkdaşlığa xüsusi önəm verən Azərbaycanın bu istiqamətlərdə qazandığı uğurlar davamlılığı ilə diqqət çəkir. Qarşılıqlı səfərlər əlaqələrin daha da möhkəmlənməsində və əməkdaşlıqda yeni-yeni istiqamətlərin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır.***

Dövlətimizin uğurlu daxili və xarici siyasəti əsas verir ki, hər gün mühüm hadisə ilə yadda qalsın. Prezident İlham Əliyevin, ardıcıl olaraq, bu və ya digər ölkələrə səfəri, eyni zamanda, digər dövlətlərin rəsmilərinin Azərbaycana səfəri malik olduğumuz imkanların təqdimatına öz müsbət təsirini göstərir. Azərbaycanın yerləşdiyi çoğrafi məkan və malik olduğu təbii resurslar daim bu əməkdaşlığa geniş imkanlar açıb. Bu günümüz üçün, nəzərə alsaq ki, dünya inkişafın Azərbaycan modelindən bəhs edir, öyrənilməsinin vacibliyini bəyan edirsə, bu halda ölkəmizlə əməkdaşlıqda maraqlı olan dövlətlərin say tərkibinin və coğrafiyasının genişlənməsi qaçılmazdır. Azərbaycanın xarici siyasətində müsəlman ölkələri ilə əməkdaşlıq xüsusi önəm daşıyır. Tacikistan Prezidenti Emoməli Rəhmonun ölkəmizə səfəri bu baxımdan istisna təşkil etmir.

Hər iki ölkə keçmiş İttifaqın tərkibində müttəfiq respublika olub. Elə həmin dövrdə də onlar arasında iqtisadi və mədəni əlaqələr formalaşıb. SSRİ dağıldıqdan və postsovet məkanında müstəqil dövlətlər yarandıqdan sonra bu münasibətlər daha da inkişaf etməyə başlayıb. İki ölkə arasında diplomatik münasibətlərin əsası 1992-ci ildə qurulub. Əlaqələr, əsasən, beynəlxalq təşkilatlar, xüsusilə də, Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Müstəqil Dövlətlər Birliyi çərçivəsində mövcud olub.

Ölkələri və xalqları birləşdirən mühüm amillərin olduğunu nəzərə alsaq, Azərbaycanla Tacikistan arasında müxtəlif sahələrdə əməkdaşlıq təqdirəlayiqdir. "Əlbəttə ki, münasibətlərimizin vacib hissəsini humanitar sahədə əməkdaşlıq təşkil edir" söyləyən Cənab İlham Əliyev bildirib ki, burada xalqlarımız arasında ənənəvi əlaqələrə istinad edirik. Bu əlaqələr bugünkü münasibətlər üçün yaxşı təməldir. Düşünürəm ki, qarşıdakı illərdə biz, həmçinin, xalqlarımızın daim sıx təmasda olması məqsədilə ölkələrimizdə mütəmadi mədəni tədbirlər keçirmək üçün iş aparmalıyıq.

Tacikistan Prezidenti Emoməli Rəhmon ölkəsinin xalqlarımız arasında tarixi-mədəni birliyə və çoxəsrlik ənənələrə əsaslanan dostluq əlaqələrini yüksək dəyərləndirdiyini qeyd edib: "Bu gün Tacikistan-Azərbaycan münasibətləri getdikcə inkişaf edir. Biz qarşılıqlı maraq doğuran əməkdaşlığımızın bütün istiqamətləri üzrə məhsuldar fəaliyyətimizin genişləndirilməsində və dərinləşdirilməsində maraqlıyıq. Əminəm ki, bu gün əldə edəcəyimiz razılaşmalar çoxşaxəli tərəfdaşlığımızı yeni məzmunla zənginləşdirəcək, daha yüksək və keyfiyyətli səviyyəyə çıxaracaq".

Azərbaycanın müstəqillik tarixində qazandığı uğurları yüksək dəyərləndirən Tacikistan Prezidenti ölkəmizin beynəlxalq arenada mövqeyinin möhkəmlənməsindən məmnunluğunu ifadə etmişdir. Ölkəmizə beynəlxalq baxışın yüksək səviyyədə olmasını şərtləndirən amillərdən söz açan Emoməli Rəhmon bildirmişdir ki, ölkənin uğurunun parlaq nümunəsi onun paytaxtının simasının ildənilə dəyişməsidir: "Bakı bu gün, haqlı olaraq, dünyanın ən gözəl və müasir şəhərlərindən biri sayılır. Bütün bu nailiyyətlər Sizin cəmiyyət tərəfindən daha çox və hərtərəfli dəstəklənən uğurlu dövlət siyasətinizlə əlaqədardır".

Regional əməkdaşlığa davamlı töhfələr verən Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi möhkəmlənən mövqeyi əlaqələrin yeni-yeni istiqamətlər üzrə inkişafında stimulverici amildir. Tacikistan prezidentinin bəyanatında da bu məqamlar öz əksini tapıb: "Dostluq və əməkdaşlıq barədə müqaviləyə əsaslanaraq, ötən illər ərzində, biz münasibətlərimizin sanballı müqavilə-hüquq bazasını formalaşdırmışıq. Bu baza bu gün, demək olar ki, əməkdaşlığın bütün sahələrini əhatə edir. Bu gün ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsinə yönələn ikitərəfli sənədlərin yeni paketi imzalanacaq".

Bir sözlə, hər bir səfər münasibətlərin inkişafında yeni bir mərhələnin başlanğıcıdır. İmzalanan sənədlər və keçirilən görüşlər zamanı ortaya qoyulan vahid yanaşmalar növbəti dövr üçün əlaqələrin inkişafına stimul verir. Böyüklüyündən və kiçikliyindən asılı olmayaraq, bütün dövlətlərlə münasibətlərini qarşılıqlı hörmət və maraqlar prinsipi əsasında quran Azərbaycanın möhkəmlənən mövqeyi yeganə problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yol açır.

***"Səs" Analitik Qrupu***

## Rəsmi xronika

Babək prospektinin yenidən qurulmasına 20 milyon 100 min manat vəsait ayrılıb. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev avqustun 15-də "Bakı şəhərinin Babək prospektinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Bakı şəhəri ərazisində ümumşəhər əhəmiyyətli Babək prospektinin yenidən qurulması məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 20,1 milyon manat vəsait ayrılıb.

***

Prezident İlham Əliyev avqustun 15-də görkəmli opera müğənnisi, xalq artisti Gülxar Həsənovanın anadan olmasının 100 illiyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən Gülxar Həsənovanın 100 illik yubileyinə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsi Mədəniyyət Nazirliyinə tapşırılıb.

# Xəzəryanı ölkələr arasında əməkdaşlıq bundan sonra da inkişaf edəcək

## *Prezident İlham Əliyev: "Azərbaycan bu sənədin hazırlanmasının bütün mərhələlərində konstruktiv işləyib və digər Xəzəryanı ölkələr kimi bu sənədin imzalanmasına öz töhfəsini verib"*

***Qazaxıstanın Aktau şəhərində baş tutmuş Xəzəryanı ölkələrin V Zirvə Toplantısında Xəzərin hüquqi statusu və s. əhəmiyyətli məsələlərə dair sənədin imzalanması, bir daha sübut etdi ki, Azərbaycanın bu tarixi hadisədə xüsusi yeri və rolu mövcuddur. Artıq bu barədə bir sıra yerli və xarici ekspertlərin də rəyləri, şərhləri və analitik proqnozları var ki, onların hər birində ölkəmizin rəhbərliyi tərəfindən yürüdülən siyasətə ayrıca önəm verilməkdədir. Belə ki, Zirvə Toplantısı çərçivəsində çıxış edən, eləcə də, bəyanatla çıxış edən Prezident İlham Əliyev də vurğulayıb ki, Xəzəryanı ölkələr arasında yüksək səviyyədə əməkdaşlıq, etimad və qarşılıqlı fəaliyyət mövcuddur və bu da təhlükəsizliyin və sabitliyin başlıca qarantıdır.***



Məhz bu fikirləri şərh edərkən, belə qənaətə gəlmək olar ki, dövlətimizin başçısı digər ölkələrlə bir yerdə Xəzərin təhlükəsizliyinin, sabitliyinin qorunması istiqamətində və eyni zamanda, Konvensiya çərçivəsində ardıcıl səy göstərməlidir. Belə ki, bu kimi addımlar regionda sabitliyə və təhlükəsizliyə öz töhfələrini verir. "Azərbaycan bu sənədin hazırlanmasının bütün mərhələlərində konstruktiv işləyib və digər Xəzəryanı ölkələr kimi, bu sənədin imzalanmasına öz töhfəsini verib" deyə qeyd edən dövlət başçımız digər mühüm faktorlara da toxunaraq, vurğulayıb ki, Konvensiya Xəzəryanı ölkələrin sıx qarşılıqlı fəaliyyəti, iqtisadi, nəqliyyat xarakterli məsələlərin və xalqlarımızın həyat səviyyəsinin yaxşılaşmasına kömək edəcək məsələlərin həlli üçün geniş perspektivlər açır. Prezident İlham Əliyevin çıxışından da, bəlli olur ki, Azərbaycan dövləti hər zaman təşəbbüskar ölkə olaraq, regionda və beynəlxalq aləmdə öncüllük təşkil edir, eləcə də, ölkələr arasında əməkdaşlıq mühiti yaradaraq, həmin ölkələrin iqtisadiyyatının güclənməsi və xalqların həyat səviyyəsinin yaxşılaşması üçün münbit şəraitlər yaradır. Məhz bu reallıq Azərbaycanın regiondakı liderlik mövqeyini möhkəmləndirir və nüfuzunu yüksəklərdə saxlayır.

### "Azərbaycan mümkün olan hər şeyi edir ki, Xəzər ekoloji inkişaf və ekoloji sabitlik zonasına çevrilsin"

Digər bir nüans isə, Xəzərin ekoloji sabitliyi və inkişafı ilə bağlıdır. Məsələ ondadır ki, Konvensiyanın imzalanmasına qədər Xəzərin ekoloji təmizliyi və sabitliyi məsələsində ortaq məxrəcə gəlinə bilinməmişdi. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan dövləti əlində olan bütün mümkün vasitələrdən maksimum qaydada yararlanaraq, Xəzərin ekosisteminin sabit məcrada qalması istiqamətində çoxsaylı layihələr həyata keçirib. Zirvə Toplantısında imzalanan sənədin ardınca, Xəzəryanı ölkələr bir araya gələrək, həmin istiqamətdə fəaliyyətlərini müştərək qurub, hövzənin ekoloji sabit zonaya çevrilməsi üçün birgə layihələr həyata keçirəcəklər. Məhz ölkəmizin başçısı bununla bağlı qeyd edib: "Azərbaycan mümkün olan hər şeyi edir ki, Xəzər ekoloji inkişaf və ekoloji sabitlik zonasına çevrilsin".

Daha bir diqqətçəkən məqam, Azərbaycanın nəqliyyat sektorunda uğurlu layihələrə imza atmasıdır. Bu mənada, Xəzərin də nəqliyyat sektorunda aparıcı mövqeyə malik olması Prezident İlham Əliyev tərəfindən mühüm şəkildə qiymətləndirilib: "Azərbaycan nəqliyyat infrastrukturuna fəal surətdə sərmayə yatırır və reallaşdırdığı layihələr bu gün bizə Xəzəri mühüm nəqliyyat arteriyası kimi nəzərdən keçirməyə imkan verir".

Ölkə başçımız öz fikirlərində Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin verdiyi töhfələrdən danışıb və vurğulayıb ki, Azərbaycan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin yaradılmasında və inkişafında da mühüm rol oynayır: "Ötən il Şimal-Cənub marşrutu üzrə Azərbaycan ərazisindən 1700 ton, bu ilin yalnız 7 ayı ərzində isə, 175000 ton yük daşınmışdır. Bu isə yükdaşıma həcminin ötən illə müqayisədə təqribən 100 dəfədən çox artması deməkdir".

### "Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti, qısa müddət ərzində, limanın imkanları 25 milyon tona çatdırıla bilər"

"Azərbaycanın öz tranzit xidmətlərini təqdim etdiyi Şərq-Qərb və Şimal-Cənub dəhlizləri iqtisadi əməkdaşlığı möhkəmləndirən, yeni iş yerləri yaradan, bizi bir-birimizə yaxınlaşdıran, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə şərait yaradan layihələrdir" deyə qeyd edən dövlət rəhbərimiz yükdaşıma xidməti ətrafında da fikirlərini bildirib: "Tranzit yüklərin həcmi artarsa, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti, qısa müddət ərzində, limanın imkanları 25 milyon tona çatdırıla bilər".

Ümumiyyətlə, Azərbaycanın logistika və yükdaşıma sistemindəki rolu daim yüksək qiymətləndirilib və dövlət başçımızın bu fikirlərindən də, aydın şəkildə bəlli olur ki, artıq Ələt Beynəlxalq Dəniz Limanı yaxın zamanlarda öz fəaliyyət funksiyasını daha da artıraraq, beynəlxalq yükdaşıma faktorunda aparıcı meydana çevriləcək.




### "Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti regional təhlükəsizlik üçün böyük təhdid doğurur"

Beləliklə, "Azərbaycan regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi işinə öz dəyərli töhfəsini verir" deyə bildirən Prezident İlham Əliyev bu təhlükəsizliyə olan təhdidlərdən də danışıb.

O, işğalçı Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar siyasətə işarə edərək, Xəzəryanı ölkələrin dövlət başçılarının, eyni zamanda, media nümayəndələrinin nəzərinə çatdırıb ki, işğalçılıq siyasəti region üçün təhlükə hesab edilə bilər: "Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti regional təhlükəsizlik üçün böyük təhdid doğurur".

Nəticə olaraq, deyə bilərik ki, məhz Sammitdə qəbul edilən qərarlar Xəzəryanı ölkələr arasında əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsi, Xəzər regionunda təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcək. Bu reallıq, bütün mənalarda, öz müsbət çalarları ilə Xəzəryanı ölkələrin inkişafına və tərəqqisinə mühüm töhfələrini verəcək.

***Rövşən RƏSULOV***

# "Xudat" sərhəd dəstəsinin "Yuxarı Tahircal" sərhəd zastavası kompleksi istifadəyə verilib







Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli sərhəd siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi ölkəmizin sərhəd mühafizəsinin müasir tələblər səviyyəsinə qaldırılmasına əlverişli zəmin yaradıb, dövlət sərhədlərinin toxunulmazlığının təminatı istiqamətində davamlı dinamik inkişafa nail olunub. Dövlət sərhədinin mühafizəsi infrastrukturunun təkmilləşdirilməsi, yeni hərbi hissələrin yaradılması, ən müasir texnika və avadanlığın sərhəd xidmətində tətbiqi, şəxsi heyətin döyüş vərdişlərinin və peşəkarlığının daha da yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər uğurla həyata keçirilir.

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, dövlət sərhədinin mürəkkəb relyefə malik ərazilərində xidmətin keyfiyyətinin yüksəldilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə "Xudat" sərhəd dəstəsinin qısa müddətdə yüksək keyfiyyətlə yeni inşa edilmiş "Yuxarı Tahircal" sərhəd zastavası kompleksi avqustun 14-də xidməti istifadəyə verilib.

Bu münasibətlə təşkil olunmuş təntənəli mərasimdə şəxsi heyəti təbrik edən Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Sərhəd Mühafizəsinə göstərdiyi ali diqqət və qayğı sayəsində DSX-nin bütün hərbi hissə və bölmələrində şəxsi heyət üçün yüksək xidmət və məişət şəraitinin yaradılmasını qeyd edib, yeni istifadəyə verilən sərhəd zastavasının bu ali münasibətin növbəti təzahürü olduğunu vurğulayıb. Bildirilib ki, 1992-ci il iyunun 16-da əsası qoyulmuş və yaradılarkən heç bir sərhəd infrastrukturuna malik olmayan "Xudat" sərhəd dəstəsi ötən dövr ərzində şərəfli inkişaf yolu keçərək Dövlət Sərhəd Xidmətinin qabaqcıl hərbi hissələrindən birinə çevrilib, respublikamızın şimal sərhədlərinin etibarlı mühafizəsinin təşkilində yüksək nailiyyətlər əldə edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Xudat" sərhəd dəstəsinə 4 dəfə səfər etməsinin şəxsi heyətdə böyük ruh yüksəkliyi yaratması, hər bir sərhədçiyə qürur və şərəfli anlar yaşatması xüsusi vurğulanıb.

Ötən əsrin 90-cı illərin əvvəllərində heç bir sərhəd infrastrukturu olmayan ərazidə xidmətə başlayan sərhədçilərə Qusar rayon sakinlərinin ciddi kömək göstərdiklərini xatırlayan general-polkovnik Elçin Quliyev sərhəd mühafizəsinin təşkilinə verilən böyük dəstəyə görə yerli sakinlərə minnətdarlığını bildirib.

Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov sərhədçiləri təbrik edib, onlara xidməti fəaliyyətlərində uğurlar arzulayıb. Ş.Alxasov Qusar əhalisinin hər zaman Azərbaycan dövlətçiliyinə xidmət etdiyini bildirib, yerli sakinlərin problemlərinin həllinə sərhədçilərin daim dəstək verməsinə görə minnətdarlığını ifadə edib. Sonra xidməti fəaliyyətlərində yüksək nəticələr göstərmiş hərbi qulluqçulara dövlət təltifləri təqdim olunub.

Daha sonra general-polkovnik Elçin Quliyev qonaqlarla birlikdə sərhəd zastavası kompleksində yaradılmış şəraitlə tanış olub.

Müasir tələblərə cavab verən sərhəd zastavasında şəxsi heyət üçün lazımi məişət şəraiti olan yataqxana, yeməkxana, istirahət və xüsusi təyinatlı otaqlar, təlim şəhərciyi, anbarlar, mərkəzləşdirilmiş istilik və işıqlandırma sistemləri, hamam-camaşırxana, idman şəhərciyi, zabit və gizir ailələri üçün tikilən, mebel və avadanlıqla təmin edilmiş mənzillər və digər tikililər sərhədçilərin istifadəsinə verilib.

Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev və qonaqlar şəxsi heyətlə birlikdə nahar ediblər.

## Ermənistanda un bahalaşdı



Ermənistanın ən çox çörək və digər məmulatlar istehsal edən sahibkarlarından biri "Qraparak" qəzetinə ölkədə unun bahalaşdığını deyib. SİA "Qraparak" nəşrinə istinadla xəbər verir ki, unun 50 kiloqramlıq çuvalı indi 1,5 dollar baha satılır. Əgər əvvəllər Ermənistanın deputatı Samvel Aleksanyanın sahibi olduğu Baqramyan un zavodu unun 50 kiloluq çuvalını 21 dollara satırdısa, bu gün qiymət 22,5 dollardan satılır.

## Dövlət 54 min nəfərə müavinət verib

Əmək pensiyası almaq hüququ olmayan 54,1 min nəfərə kommunal, nəqliyyat və digər xidmətlər üçün müavinət verilib. Bu da ötən ilin müvafiq dövrünün göstəricisindən 0,7 faiz çoxdur. SİA Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun ilkin məlumatlarına əsasən, cari ilin yanvar-iyun aylarında pensiya və müavinətlərin maliyyələşdirilməsinə 1792,8 milyon manat vəsait yönəldilib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 118,1 milyon manat və ya 7,0 faiz çoxdur. Vəsaitin 97,9 faizini pensiya xərcləri təşkil edib.

2018-ci ilin altı ayı ərzində əhaliyə 38,4 milyon manat məbləğində müavinət ödənilmişdir ki, bunun da 29,2 faizi hamiləliyə və doğuma görə, 32,4 faizi əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, 17,6 faizi dəfn üçün, 20,8 faizi isə digər məqsədlər üçün ödənilən müavinətlərə yönəldilib. 2018-ci il iyulun 1-i vəziyyətinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda 1311,7 min nəfər pensiyaçı qeydiyyatda olub ki, bu da ölkə əhalisinin 13,4 faizini təşkil edir. Onların 58,6 faizi yaşa, 29,9 faizi əlilliyə, 11,5 faizi isə ailə başçısını itirməyə görə pensiya alır.

Təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,4 faiz artaraq 219,2 manat təşkil edib və orta aylıq əmək haqqının 39,6 faizinə (2017-ci ilin birinci yarısında 38,7 faizinə) bərabər olub. 2018-ci il iyulun 1-i vəziyyətinə 409,3 min nəfərə sosial müavinətlər təyin olunub. Yaşa görə müavinət alanların sayı 42,7 min nəfər, əlilliyə görə - 164,1 min nəfər, ailə başçısını itirməyə görə - 45,5 min nəfər, sağlamlıq imkanları məhdud olduğuna görə müavinət alan 18 yaşadək uşaqların sayı isə 74,0 min nəfər olub.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların 320 nəfər qəyyumuna aylıq müavinət verilib. Bununla yanaşı, şəhid ailələrinin, müharibə əlillərinin, Çernobıl AES-də baş vermiş qəzanın ləğvində iştirak edərək I və II qrup əlil olmuş şəxslərin və müddətli hərbi xidmət qulluqçularının 9,7 min ailəsinə 17,6 min uşaq üçün aylıq müavinət verilib. Bundan əlavə, 775 nəfər bir yaşadək uşağa görə 768 ailəyə və beşdən çox uşağı olan 2,9 min qadına 8,9 min uşaq üçün sosial müavinət verilib. 2018-ci ilin altı ayı ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 48391 nəfərə, o cümlədən 38685 uşağın doğulmasına görə, 4223 nəfərə radiasiya qəzası nəticəsində əlil olmuş şəxslərin müalicəsi üçün, 3942 nəfərə penitensiar müəssisələrində cəza çəkməkdən azad edilmiş şəxslərə və həyatını itirmiş 1541 nəfərin dəfni üçün birdəfəlik müavinətlər verilib. Cari ilin iyulun 1-i vəziyyətinə əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində 413 nəfər zərərçəkən kompensasiya alıb. Azərbaycan Respublikası Prezidentinin təqaüdü təyin olunmuş müxtəlif kateqoriyadan olan şəxslərin sayı 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 6,3 faiz artaraq 62,5 min nəfər olub.

## Muxtar respublikada rabitə xidmətlərinin əhatə dairəsi genişləndirilir

Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli poçt, rabitə, internet və teleradio xidmətlərinin göstərilməsi uğurla davam etdirilir. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, Ordubad rayonunda Rabitə Evi və 11 min 300-dən çox nömrə tutumu olan 35 yeni nəsil telefon stansiyası istifadəyə verilib, "Huawei" şirkəti ilə bağlanmış müqaviləyə əsasən 15 yeni nəsil avtomat telefon stansiyası muxtar respublikaya gətirilərək quraşdırılmasına başlanıb. Şərur rayonunun Axamməd, Həmzəli, Kürçülü, Yuxarı Yaycı və Diyadin kəndlərində, Şahbuz rayonunun Şada kəndində kareltipli ATS-lər yeni nəsil NGN tipli avtomat telefon stansiyalar ilə əvəz olunub, Kəngərli rayonunun Qarabağlar kəndində əhalinin telefon çəkilişinə olan tələbatı nəzərə alınaraq 448 nömrəlik yeni avtomat telefon stansiyası quraşdırılıb. Mövcud avtomat telefon stansiyaların nömrə tutumlarının artırılması nəticəsində 188 yeni telefon nömrəsi istismara verilib, muxtar respublika ərazisində, ümumilikdə, 9770 metr fiberoptik kabel xətti çəkilib. Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən genişzolaqlı ADSL texnologiyası vasitəsilə 546 yeni abunəçi internetlə təmin olunub, Naxçıvan Muxtar Respublikasının "Elektron hökumət" portalında yenilənmə işləri davam etdirilib.

## Şervud Andersonun "Vaynzburq Ohayo" kitabının onlayn versiyası təqdim edilib

Azərbaycan Tərcümə Mərkəzinin son nəşrlərindən olan Şervud Andersonun hekayələrindən ibarət "Vaynzburq Ohayo" kitabının onlayn versiyası "açıq kitab" elektron kitabxanası oxucuların ixtiyarına verilib. Tərcümə Mərkəzindən AZƏRTAC-a bildirilib ki, kitabxana izləyiciləri mərkəzin www.achiqkitab.az saytına daxil olmaqla nəşrdən pulsuz yararlana bilərlər.

# Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanması dünya mediasının diqqət mərkəzindədir

***Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısı və Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanması beynəlxalq ictimaiyyətin, dünya mediasının diqqət mərkəzindədir. Dünyanın aparıcı informasiya agentlikləri bu mövzuya geniş yer ayırır, diqqəti imzalanan sənədin tarixi əhəmiyyətinə yönəldirlər. Böyük Britaniyanın "BBC" yayım korporasiyasının Xəzərin hüquqi statusuna dair Konvensiya ilə bağlı yaydığı xəbərdə deyilir ki, Azərbaycan, Rusiya, İran, Qazaxıstan və Türkmənistan Xəzər dənizinin sərhədlərinin bölünməsi ilə bağlı razılığa gələrək Qazaxıstanın Aktau şəhərində Xəzərin hüquqi statusu haqqında Konvensiyanı imzalamaqla Xəzərin ehtiyatlarının bölüşdürülməsinə dair bir düstur yaradıblar.***




ABŞ-ın "Washington Times" qəzeti yazır ki, beş ölkənin liderləri on illiklər boyu davam edən qeyri-müəyyənlikləri sona çatdırmağa dair Konvensiyanı imzalayıblar. "Nyu-York Times"ın dərc etdiyi məqalədə isə vurğulanır ki, Xəzər hövzəsindəki beş ölkə potensial olaraq geniş neft və qaz ehtiyatlarını bölüşdürmək üçün bir düsturla razılaşıb. İmzalanan Konvensiyada sahilyanı ölkələrin maraqlarının balansının əks olunub.

Çinin "Sinxua" agentliyi Xəzəryanı ölkələrin dövlət başçılarının Qazaxıstanın Aktau şəhərində keçirilən V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması ilə bağlı xəbərində qeyd edir ki, sənəd delimitasiya, naviqasiya və balıqçılıq rejimi məsələlərini aydın şəkildə tənzimləyir, iştirakçı ölkələrin qarşılıqlı hərbi-siyasi fəaliyyət prinsiplərini nizamlayır və Xəzər dənizinin yalnız sülh məqsədləri üçün istifadə olunmasına zəmanət verir.

Çinin mərkəzi televiziyası CCTV də konvensiyanın əhəmiyyətini qeyd edərək xəbər verir ki, iqtisadiyyat, nəqliyyat və təhlükəsizlik sahələrində imzalanan sazişlə Xəzərin hüquqi statusunun tənzimlənməsi üçün lazımi baza təmin olunacaq.

Xəzəryanı ölkələrin dövlət başçılarının Qazaxıstanın Aktau şəhərində keçirilmiş V Zirvə toplantısı Almaniya mediasında da günün baş xəbəri kimi təqdim olunub. "Spiegel", "Die Zeit", "Deutsche Welle", "ZDF", "DLF" və digər nüfuzlu KİV-lər dünyada ən böyük daxili su hövzəsi hesab edilən Xəzər dənizinin sahilində yerləşən beş dövlətin uzun sürən danışıqlardan sonra Xəzərin hüquqi statusu barədə razılığa gələrək Konvensiya imzalamasını mühüm hadisə kimi dəyərləndirirlər. Qeyd olunur ki, Konvensiyaya əsasən 15 millik zona Xəzəryanı dövlətlərin ərazi suları hesab edilib. Əlavə olaraq 10 millik zonada sərbəst balıqçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ rəsmiləşdirilir və digər dövlətlərin hərbi gəmilərinin Xəzər dənizinə buraxılmamasına dair də razılıq əldə olunub. Yazılarda Xəzəryanı dövlətlərin ayrı-ayrılıqda Xəzərin bölgüsü məsələsində sərgilədiyi mövqe və maraqlar nəzərdən keçirilib. Həmçinin Türkmənistanın öz qazını Azərbaycan ərazisindən keçməklə Avropa bazarına çıxarmaqda maraqlı olduğu vurğulanıb.




"Euronews" telekanalı Xəzəryanı ölkələrin dövlət başçılarının Qazaxıstanın Aktau şəhərində keçirilən V Zirvə toplantısını geniş işıqlandırıb. Bununla bağlı təqdim olunan süjetdə qeyd edilir ki, Qazaxıstanda Xəzəryanı dövlətlərin Zirvə toplantısı tarixi sənədin - Xəzər dənizinin hüquqi statusuna dair konvensiyanın imzalanması ilə başa çatıb. Sənədi beş dövlət - Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan liderləri imzalayıb. Bildirilib ki, Konvensiya üzərində işlər 20 ildən çox vaxt aparıb. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev sənədi Xəzər dənizinin konstitusiyası adlandırıb. Sənədə əsasən Xəzər dənizinin su səthinin əsas sahəsi tərəflərin ümumi istifadəsində qalacaq, Xəzərin dibi isə ikitərəfli razılaşmalar əsasında, beynəlxalq hüquqa riayət olunmaqla qonşu dövlətlər arasında bölüşdürüləcək.

Türkiyənin aparıcı media qurumları Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsini tarixi hadisə kimi dəyərləndirirlər. Anadolu agentliyi, "ahaber", "trthaber", "haberturk" xəbər portalları, "Millət" və "Hüriyyət" qəzetləri və digər KİV-lər mövzu ilə bağlı məlumatlarında Xəzər dənizinin hüququ statusuna dair danışıqların iyirmi ildən çox müddətdə davam etdiyini bildirir, sənədin əhəmiyyətindən ətraflı bəhs edirlər. Türkiyə mediası, həmçinin Xəzər hövzəsinin zəngin karbohidrogen ehtiyatları və tranzit imkanları, eləcə də bu məsələlərin imzalanan beynəlxalq sənəddə əksini tapmasına da diqqət yetirirlər.

"Times of İslamabad" agentliyi Azərbaycan, Rusiya, İran, Qazaxıstan və Türkmənistan prezidentlərinin uzun müddət davam edən danışıqlardan sonra imzaladıqları sənədin Xəzər dənizinin kollektiv istifadəsinə yol açdığını bildirir.

Ukraynanın "Ukrinform" və "UNİAN", Belarusun "BELTA" və "Sputnik" informasiya agentliklərində yayımlanan xəbərlərdə Xəzərin statusunun müəyyənləşdirilməsi tarixi uğur kimi qiymətləndirilir. Vurğulanır ki, Konvensiyaya əsasən, Xəzər dənizindəki böyük neft və qaz ehtiyatlarının bölünməsi prinsipi əksini tapıb. Belə ki, Xəzər dənizinin enerji resursları tərəflər arasında imzalanacaq növbəti müqavilələrə uyğun olaraq bölünəcək. Dövlət başçıları ərazi sularına bitişik balıqçılıq zonaları barədə razılıq əldə ediblər ki, burada da xüsusi balıq ovu hüququ təmin olunacaq.




Qazaxıstanın kütləvi informasiya vasitələrində Aktauda keçirilən Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısı geniş işıqlandırılıb. "Egemen" qəzeti, "Kazinform" informasiya agentliyi, "Bnews.kz", "365.kz", "Tengri-News.kz" saytlarında dərc olunana materiallar və reportajlarda Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstanın dövlət başçısı ilə görüşünə və Konvensiyanın əhəmiyyətinə xüsusi diqqət ayrılıb.

Səudiyyə Ərəbistanı Krallığının "Əl-Şərq Əl-Ausat" qəzeti Xəzərin hüquqi statusunu müəyyənləşdirən Konvensiyanı geniş şərh edib. Qəzetdə dərc olunan məqalədə Konvensiyanın regionda neft və qaz ehtiyatlarının kəşfiyyatı, hasilatı və nəqlini xeyli asanlaşdıracağı, su resurslarından istifadəni tənzimləyəcəyi qeyd edilir. Diqqətə çatdırılır ki, orta xətt prinsipi əsasında hazırlanan Konvensiya Xəzərə həm göl, həm də dəniz yanaşmalarını nəzərə alır. Ona görə də Xəzərə siyasi-hüquqi baxımdan xüsusi obyekt kimi yanaşılacaq.

Aktauda keçirilən Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısını və Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanmasını alqışlayan BMT-nin baş katibi Antonio Quterreş bunu region ölkələrinə uzunmüddətli mübahisələrin həllində kömək edəcək tarixi sənəd adlandırıb. Baş katibin dünya mediasında yayılan bəyanatında qeyd olunur ki, bu tarixi sənəd beynəlxalq sülh və təhlükəsizliyin dəstəklənməsi üçün zəruri olan regional əməkdaşlığın vacibliyini nümayiş etdirir. Konvensiya Xəzər dənizinin sahil dövlətləri arasında çoxdankı problemin geniş spektrinin nizamlanması üçün əvəzsiz bir alət, həmçinin regional gərginliyin aradan qaldırılmasında əhəmiyyətli addım olacaq.

"S and P Global" ticarət korporasiyasının saytında yerləşdirilən yazıda vurğulanır ki, Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya regional əməkdaşlığı nümayiş etdirir. Bildirilir ki, sualtı boru kəmərlərinin inşası üçün geniş imkanlar açan bu sənəd qlobal neft layihələrinin reallaşmasına təkan verəcək.

Aktauda Xəzəryanı ölkələrin dövlət başçılarının Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı imzalaması sözsüz ki, çox əhəmiyyətli hadisədir və Xəzərdə təhlükəsizliyin təmini üçün atılan mühüm addımdır. Bu fikri isə Ukrayna Ali Radasının deputatı Oleq Medunitsa söyləyib. Deputat bildirib ki, bu Konvensiya Xəzəryanı ölkələrin Xəzər dənizində birgə layihələr həyata keçirmələri üçün yeni imkanlar açacaq. "Bununla da Xəzəryanı ölkələr öz milli maraqları ilə yanaşı, təhlükəsizliklərini də təmin edə bilərlər",- deyə deputat vurğulayıb.

Digər nüfuzlu media qurumları da Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısında imzalanan sənədləri yüksək dəyərləndirərək qeyd edirlər ki, Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan liderlərinin imzaladığı Konvensiya ilk dəfə olaraq əraziyə çıxışın paylaşdırılması üçün hüquqi baza yaradır. Sənəd Xəzər dənizində bəzi mühüm neft və qaz layihələrinin işlənib hazırlanmasını asanlaşdıra bilər.

# “Con Batçelor Şou”: Tərtər rayonundan reportaj



***Amerika Birləşmiş Ştatlarının geniş dinləyici auditoriyasına malik olan “Con Batçelor Şou” radioverilişinin aparıcısı Con Batçelor Azərbaycana səfəri çərçivəsində Tərtər rayonunun Qapanlı kəndindən reportaj hazırlayıb.***

AZƏRTAC xəbər verir ki, məşhur amerikalı aparıcını cəbhə xəttinə yaxın rayona səfər zamanı Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov və Azərbaycan Silahlı Qüvvələrinin generalı Hikmət Həsənov müşayiət ediblər.

Reportajın əvvəlində Con Batçelor deyib ki, o, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumata malik deyil və təmas xəttində baş verənləri, burada yaşayan insanlara dəyən zərəri görmək onda böyük narahatlıq doğurub.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov Qapanlı kəndinin təmas xəttinə ən yaxın yer olduğunu deyib. “Hazırda dayandığımız yerdən düşmən səngərinədək təxminən 200-250 metr məsafə var. Lakin buna baxmayaraq, yolboyu gördünüz ki, kənddə demək olar boş torpaq yoxdur, burada yaşayan insanlar əkib-becərirlər. Tərtər kənd təsərrüfatı rayonudur və burada bütün əhali kənd təsərrüfatı məhsulları yetişdirməklə gündəlik tələbatlarını təmin edirlər”, - deyə M.Məmmədov əlavə edib.

Con Batçelor 2016-cı ilin Aprel döyüşlərinə toxunaraq bu ərazinin cəbhə xəttinə çox yaxın olduğu üçün o cür hadisələrin hər an yenidən yaşana biləcəyini düşünməyin narahatlıq doğurduğunu deyib.

General Hikmət Həsənov cəbhə xəttindəki vəziyyətlə bağlı məlumat verərək bildirib ki, əsas tapşırığımız cəbhəboyu müdafiənin dayanıqlılığını, həmçinin təmas xəttinə yaxın yerləşən yaşayış yerlərini düşmən hücumlarından qorumaq, düşmənin istənilən təxribat və təhdidinin qarşısını almaqdır. General Ermənistan-Azərbaycan münaqişəsinin dondurulmuş münaqişə olmadığını qeyd edib. Bildirib ki, erməni silahlı qüvvələri tez-tez atəşkəsi pozur və müharibə istənilən zaman yenidən alovlana bilər. “Lakin bu gün Azərbaycan Ordusu düşmənin istənilən təhdidinin və hücumunun qarşısını almaq iqtidarındadır”, - deyə Hikmət Həsənov vurğulayıb.

Müstəqim Məmmədov rayonda kənd təsərrüfatının inkişafı sahəsində görülən işlərdən danışaraq deyib: “Əvvəla qeyd edim ki, biz əhaliyə suyu artezian quyularından verməyə məcburuq. Tərtərin 31600 hektar ərazisi var. May ayının sonundan noyabr ayının ilk ongünlüyünə qədər erməni işğalçıları suyu tamamilə kəsir. Biz torpaqlarımızı ancaq artezianlar vasitəsilə suvara bilirik və bu da əhalimizin yetişdirdiyi məhsulların hamısını suvarmağa çatmır. Əgər bizim Tərtər çayından suyumuz gəlsə, məhsuldarlığımız indikindən daha yaxşı olar və bu da kənd zəhmətkeşlərinin firavanlığının daha yaxşı olmasına şərait yaradar. Lakin siz özünüz də bayaq gördünüz ki, Tərtər çayında bir qram da su yoxdur”.

M.Məmmədov, həmçinin 2016-cı ilin Aprel döyüşlərindən danışıb. Bildirib ki, bu döyüşlərdən dərhal sonra Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva buraya gəldilər. Dövlətimizin başçısı dağıdılmış 256 evin bərpa olunması tapşırığını verdi və onlar hamısı yenidən tikildi. İki məktəb binası da dağılmışdı, onlar da yenidən tikildi və bərpa olundu. Lakin əsas narahatlığımız ondan ibarətdir ki, mülki şəxslər hər gün ermənilərin hücumuna məruz qalırlar. Gündəlik təsərrüfatda işlədikləri zaman erməni silahlı qüvvələri onlara atəş açır. Yəni, bizim əsas narahatlığımız ondadır ki, burada mülki əhali hücuma məruz qalır. Lakin əgər Aprel hadisələri bir daha təkrarlansa, insanlar öz torpaqlarını qorumaq üçün silaha sarılıb döyüşməyə hazırdırlar. Bu gün bütün Tərtər əhalisi, ümumiyyətlə, bütün Azərbaycan xalqı bilir ki, Azərbaycanın işi haqq işidir. İşğal olunmuş torpaqlar bizim dədə-baba torpaqlarımızdır və biz bu torpaqları geri qaytarmağa həmişə hazır olmalıyıq. Qeyd edək ki, ABŞ-ın məşhur və geniş auditoriyaya malik olan “Con Batçelor Şou” radioverilişinin aparıcısı Con Batçelor iyulun 29-dan avqustun 4-dək Azərbaycanda səfərdə olub və silsilə verilişlər hazırlayıb.

# “Konvensiya Ermənistanı regional layihələrdən təcrid edib”

Ermənistan Xəzər dənizindən uzaqda yerləşsə də, Xəzərin statusu ilə bağlı imzalanan Konvensiya ölkənin maraqlarına təsirsiz ötüşməyəcək. SİA-nın erməni mətbuatına istinadən verdiyi xəbərə görə, bunu enerji təhlükəsizliyi üzrə ekspert, beynəlxalq politoloq Vaqe Devatyan açıqlamasında deyib. Onun sözlərinə görə, Konvensiya Ermənistanın maraqlarına birbaşa təsir etməsə də, dolayı yolla öz mənfi təsirlərini göstərməkdədir: “Geosiyasi nöqteyi-nəzərdən Konvensiyanın imzalanması nəticəsində Ermənistan regionda hərbi-siyasi və geosiyasi əhəmiyyətini itirmiş olur”.



Ekspertin sözlərinə görə, Krımın birləşdirilməsi, Suriyada əldə edilən uğurlar, eləcə də Xəzərin statusu haqqında Konvensiyanı imzalayan Rusiya mövqelərini möhkəmləndirərək Qara dəniz - Xəzər dənizi regionuna nəzarət etmək imkanı qazanıb: “Bu baxımdan Ermənistan Zaqafqaziyada mövqeyini itirir”.

Bundan əlavə, enerji təhlükəsizliyi üzrə ekspert bildirib ki, Xəzər dənizinə dair Konvensiyanın imzalanması Rusiya, Azərbaycan və İran arasında bir çox sahələrdə, xüsusilə də İrəvanın maraqlarına təsir edən iqtisadiyyat, enerji və nəqliyyatda əməkdaşlığı gücləndirəcək: “Bu gün biz görürük ki, Ermənistan və Azərbaycan ərazisindən keçirilməli olan əsas nəqliyyat və logistika layihələri tamamilə Azərbaycan ərazisinə yönəldilib. Xəzər Konvensiyası təbii olaraq bu prosesin canlanması üçün ön şərtlər yaradır. İran-Ermənistan dəmir yolu layihəsinin dondurulması və bu marşrutun da Azərbaycan-İran ərazisinə yönəldilməsi də nəzərdə tutulur”.

Ekspertin fikrincə, Konvensiya İran-Ermənistan-Gürcüstan-Rusiya enerji dəhlizi layihəsinə də ciddi şəkildə təsir edə bilər: “Bütün bunlar, Ermənistanın regional geosiyasi proseslərdən təcrid olunduğuna gətirib çıxaracaq”.

# Erməni millətçilərinin mitinq çağırışları cavabsız qaldı

“Armeniasputnik”am saytı Yuxarı Larsda erməni məhsullarının günlərlə blokadada qalmasını aradan qaldırmaq üçün Gürcüstan dəmir yolu vasitəsilə yüklərin Azərbaycan ərazisindən Rusiyaya daşınmasını mövzusunu gündəliyə gətirdi. Əlbəttə, o bu yadasalmanı özünəməxsus şəkildə etdi. Guya kimsə bu ideyanı ortalığa atıb, Gürcüstanda və Ermənistanda isə bu yolla yüklərin daşınmanın əleyhinədirlər. N.Paşinyan hökumətindən əvvəl ki Karen Karapetyan hökuməti də bir neçə dəfə Ermənistanın Azərbaycanın nəqliyyat kommunikasiyalarına, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yoluna qoşulmasını müzakirə etmişdi. Mehri dəmir yolunun İran kontekstindən açılması da Ermənistan hökumətinin müzakirə etdiyi məsələlərdən biri idi. Bunu SİA-ya açıqlamasında politoloq Mübariz Əhmədoğlu deyib.



*“Ermənistan əhalisinin əksəriyyəti və Dağlıq Qarabağdakı ermənilərin böyük bir qrupu Azərbaycanla münasibətlərin normallaşmasının tərəfdarıdır”*

Politoloq bildirib ki, indi Yuxarı Larsa alternativ kimi ermənilərin Gürcüstan-Azərbaycan-Rusiya dəmir yolu daşımasını gündəliyə gətirməsi mövzunun müəyyən mənada inkişafı deməkdir: “Əgər Yuxarı Larsda vəziyyət gərginləşəcəksə, erməni ictimaiyyətində hətta Mehri dəmir yolunun açılması tələb edənlər tapılacaq. Ən azı N.Paşinyan hökumətinin iqtisadi proqramında kənd təsərrüfatının inkişafı çox ambisiyalı qoyulub. Ermənistanın kənd təsərrüfatı məhsulları üçün ən böyük bazar Rusiya bazarıdır. Abxaziyanın və Cənubi Osetiyanın müstəqilliklərini tanıyan dövlətlərin sayının artması fonunda Gürcüstanla Abxaziya arasında dəmir yolu əlaqələrinin bərpası qeyri-mümkündür. Həm də indi Gürcüstan rəhbərliyinin də Ermənistana konseptual yanaşması tam dəyişib. B.İvanişvili Ermənistanı Gürcüstanın satellitinə çevirmək istəyir. Bununla da Gürcüstanın daha güclü dövlət olduğunu nümayiş etdirmək istəyir. Artan kənd təsərrüfatı yüklərinin daşınması Gürcüstandan kənar marşrutları Ermənistan üçün zəruri edir”.

M.Əhmədoğlu əlavə edib ki, məsələnin daha aydın tarixinin mövcudluğunu N.Paşinyanın mitinqləri ortalığa qoydu: “Möhlət hüququ uğrunda mübarizə aparan tələbələr N.Paşinyanın mitinqlərinin əsas kütləsi idi. Hərbçilər, o cümlədən Dağlıq Qarabağdakı hərbi hissələrdən qaçanlar da mitinq iştirakçıları arasında heç də az saylı deyildi. Əhalinin də böyük əksəriyyəti N.Paşinyanı məhz Dağlıq Qarabağ məsələsində S.Sərkisyandan fərqli mövqeyin daşıyıcısı olduğuna görə dəstəklədilər. Mitinqlərinin Dağlıq Qarabağ məsələsindəki bu imperativliyini danması N.Paşinyana baha başa gələcək. Ən azı bu gün baş verənlər də bunu sübut edir. Ermənistan Ümummilli Hərəkatının tanınmış fəallarından Zoya Tadevosyanın ətraf əraziləri Azərbaycana qaytarmaqla bağlı çağırışı ilk dəfə deyildi. Lakin bu dəfə onu belə çağırışa inamlı edən sosial şəbəkələrin erməni seqmentində də analoji çağırışların sayının nisbi çox artması idi. Z.Tadevosyan baş nazir N.Paşinyanın aşkar hədəsi qarşısında dediyi fikirlərə görə üzr istədi. Amma o, S.Sərkisyanın dövründə də ən azı 2 dəfə belə çağırışlar etmişdi. Heç kəs Z.Tadevosyanı üzr istəməyə vadar edə bilmədi. “Respublika” partiyasının rəhbərlərindən biri olan A.Aşotyan Ermənistandakı indiki vəziyyəti “bankada əqrəblə bir yerdə olmaq” kimi xarakterizə etdi. 37-ci ilin Ermənistana qayıtdığını iddia edənlərin sayı çoxalır.

Z.Tadevosyanın çağırışından sonra Dağlıq Qarabağın təhlükəsizlik xidmətinin keçmiş rəhbəri A.Qaramyan torpaqların Azərbaycana qaytarılması ilə bağlı erməni seqmentindəki artan çağırışlara qarşı mitinq keçirməyə çağırış etdi. Onun bu çağırışını Ermənistan parlamentinin keçmiş təhlükəsizlik komissiyasının sədri, Dağlıq Qarabağ separatçı rejiminin de-fakto baş nazirinin müavini işləmiş, iki silah zavodunun sahibi və kifayət qədər maliyyə imkanlı, daşnak A.Aqabekyan da daxil olmaqla bir sıra qatı xəstə erməni millətçiləri də dəstəklədilər. 15 gündən çox vaxt keçməsinə baxmayaraq hələ də Ermənistanda bu çağırış əsasında mitinqin keçirilməsi barədə məlumata rast gəlməmişik. Buna Ermənistanda bir qrup xəstə millətçinin ifşası kimi yanaşmaq olar. Amma hələ ki, N.Paşinyan əhalinin bu əhval-ruhiyyəsini də görmək istəmir”.

# Məktəbə hazırlıq qrupları bizə nə verir?

ARAŞDIRMA

***Uşağın şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyətə malik olan məktəbəqədər təhsil məktəbə qədəm qoyacaq fidanların əvvəlcədən hazırlanması üçün vacibdir. Bütün valideynlər uşaqlarını məktəbə hazırlamağa çalışır ki, balacalar məktəbdə müvəffəqiyyətlə oxusunlar.***



Respublikamızda təhsilin bütün sahələrinə, o cümlədən məktəbəqədər təhsilə dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı göstərilir, xüsusi dövlət proqramları həyata keçirilir. Məktəbəqədər təhsil sahəsində mövcud olan problemlərin aradan qaldırılması, təhsilin müasir tələblər səviyyəsində qurulmasının təmin olunması istiqamətində kompleks tədbirlər yerinə yetirilir. Məhz bunun nəticəsidir ki, 2016-cı ildən başlayaraq ölkəmizdə dövlət ümumitəhsil məktəblərində ödənişsiz əsaslarla məktəbəhazırlıq qrupları fəaliyyətə başlayıb. Təcrübə göstərir ki, məktəbə hazırlıq mərhələsindən keçmiş uşaq şagird olduğu zaman məktəbə, kollektivə daha tez alışır, ətraf mühiti dərk etməkdə, diqqət və yaddaşın formalaşması ilə əldə etdiyi bacarıq və vərdişlərini dərs prosesində istifadə edir, bu da ona dərsi mənimsəməsində böyük köməklik göstərir.

### Məktəbə hazırlıq vacibdirmi və bu təhsil sistemi bizə nə verir?



Məsələ ilə bağlı SİA-ya açıqlama verən Milli Məclisin elm və təhsil komitəsinin üzvü, deputat Kamilə Əliyeva deyib ki, ölkəmizdə yaradılan məktəbəhazırlıq qruplarının ödənişsiz fəaliyyət göstərməsi, dövlətin öz vətəndaşlarına olan diqqətinin qayğısının nəticəsidir. Bu da bütün insanlar, cəmiyyət tərəfindən müsbət qarşılanır: "Məktəbə hazırlıq qruplarının yaradılmasında əsas mahiyyət 1-ci sinfə qəbul olan uşaqlarının yükünün yüngülləşməsidir. Belə ki, məktəbə hazırlıq qruplarına cəlb edilən uşaqlar 1-ci sinifdə təhsil aldıqda, onların işi xeyli asanlaşır. Bu, həm onların sağlamlığına, həm də inkişafına müsbət təsir edir".

### "Bəzi ölkələrdə məktəbəhazırlıq qrupları yoxdur"

Hər bir ölkədə məktəbəhazırlıq təhsil sisteminə yanaşmanın fərqli olduğunu deyən deputat bəzi dövlətlərdə məktəbə hazırlıq qruplarının olmadığını da dilə gətirib.

### Təhsillə bağlı qanunvericilik bazası kifayət edirmi?

K.Əliyeva qeyd edib ki, Azərbaycanda təhsillə bağlı kifayət qədər qanunvericilik bazası mövcuddur: "Bildiyiniz kimi, ölkəmizdə 2009-cu ildə "Təhsil haqqında" ana qanun qəbul edilib. İndi isə biz pillələr üzrə xırdalayaraq, "Məktəbəqədər təhsil", "Ümumtəhsil", "Peşə təhsili", "Ali təhsil" haqqında qanun layihələri üzərində çalışırıq. Bilirsiniz ki, ana qanundan çıxacaq istiqamətlər üzrə bəzi qanun layihələr qüvvəyə minib, bəziləri isə gələcəkdə qüvvəyə minəcək".

### Məktəbə hazırlıq qrupları hansı zərurətdən yaranıb?

Məktəbə hazırlıq qruplarının yaranma zərurəti haqqında məlumat verən təhsil eksperti Almaz Həsrət bildirib ki, sözügedən qrupların yaradılmasında məqsəd uşaqların məktəbə uyğunlaşmasında problemlərin aradan qaldırılmasıdır: "Hər bir övlad valideyn üçün əzizdir. Valideynlərin əksə-



riyyəti övladlarını bağçaya getməyə qoymadıqları, ev şəraitində, dayə və nənə-baba himayəsində saxladıqları üçün belə uşaqların məktəbdə kollektivə uyğunlaşmasında müəyyən problemlərə səbəb olur. Bağça mühitində olmayan uşaqlarda bu problemlər daha çox özünü büruzə verir. Belə uşaqlar çox zaman valideyndən ayrıla bilmədiyi üçün məktəbdə daha çox ağlayır və sıxıntılar yaşayır. Məhz belə uşaqların məktəbə uyğunlaşması üçün belə bir təlimat verildi ki, ölkədə məktəbə hazırlıq qrupları yaradılsın və həmin uşaqlar şagird adını almamışdan öncə məktəb mühitinə öyrənsinlər".

### Müsbət tərəfləri

Ekspert söyləyib ki, məktəbə hazırlıq qruplarının müsbət tərəfləri uşaqların məktəbə tam hazırlıq vəziyyətə gətirilməsi, kollektiv mühitdə davranışa, ünsiyyətə malik olmasıdır: "Belə ki, həm bağça təhsili görən, həm də evdə dayə, nənə-baba və ya valideyn himayəsində olan uşaqlar məktəbəqədər hazırlıq qruplarına cəlb olunduqda bu, onların həm təhsilinə, həm məktəbdə davranışına, həm də ünsiyyətin formalaşmasına gətirib çıxarır".

### "Hazırlıq qruplarının sayının artırılmasına ehtiyac var"

A.Həsrət söyləyib ki, məktəbə hazırlıq qruplarının sayının artırılmasına ehtiyac var: "Bir çox hallarda valideynlər uşaqlarını evlərinə yaxın ərazidə yerləşən orta məktəbdə yaradılan məktəbə hazırlıq qrupuna yönəldir ki, övladı birinci sinfə gedəndə təhsilini də həmin məktəbdə və müəllimədə davam etdirsin. Lakin birinci sinfə qəbul üçün həyata keçirilən elektron qeydiyyat zamanı valideynlərin bu istəyi bəzi hallarda yerinə yetirilmir. Yaxın ərazidə yerləşən məktəblərdə I sinfə qəbul tələbatdan artıq olduğundan bir çox hallarda valideynlər çıxılmaz vəziyyətdə qalırlar. Belə olan halda, valideynlər evindən daha uzaq məsafədə yerləşən məktəblərə üz tutmalı olurlar".

### Qruplarda uşaqların sayına diqqət edilməlidir

Ekspert qeyd edib ki, əlavə qruplar açıldığı zaman bir qrupda təhsil alacaq uşaqların sayına diqqət etmək önəmlidir: "Bəzən bizdə bir qrupda 30-dan çox şagird təhsil alır. Bu, gərəkli deyil. Uşaqların sayı 30-35-dən çox olan qrupları iki yerə bölmək mümkündür. Burada saya deyil, keyfiyyətə diqqət etmək lazımdır. Bu gün məktəblərimizdə bunun üçün hər bir şərait var. Bu məsələnin həlli həm məktəblərdə yerin olmamasından narazı qalan valideynlərə, həm də təhsilin keyfiyyətinin daha da artırılmasına kömək edə bilər".

Məlumat üçün nəzərinizə çatdıraq ki, bu gündən respublika üzrə ümumi təhsil müəssisələrində məktəbəhazırlıq qruplarına sənəd qəbulu başlayır. Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan, Naftalan şəhərlərində Abşeron, Yevlax, Samux rayonlarında yerləşən ümumtəhsil müəssisələri üzrə məktəbəhazırlıq qruplarına sənəd qəbulu elektron qaydada - mektebeqebul.edu.az saytı vasitəsi ilə həyata keçiriləcək.

Məktəbəhazırlıq qruplarının yaradılmasında məqsəd 5 yaşlı uşaqların məktəb təliminə hazırlığı ilə əlaqədar psixoloji dayanıqlığını artırmaq, əhatə olunduqları aləmə və təhsil mühitinə uyğunlaşdırmaq, onların ünsiyyət və birgə fəaliyyət bacarıqlarına yiyələnməsini təmin etməkdir.

Məktəbəhazırlıq qrupları üçün tələb olunan sənədlərə uşağın şəxsiyyətini təsdiq edən sənədin əsli və surəti (uşağın şəxsiyyət vəsiqəsi olmadığı halda doğum haqqında şəhadətnaməsi), uşağın mübadilə vərəqi (sağlamlıq haqqında arayış-forma 26U), 2 (iki) ədəd 3x4 ölçüdə rəngli fotoşəkil və məktəb direktorunun adına ərizə (qəbulu elektron sistem vasitəsilə həyata keçirilən rayon və şəhərlərdə valideynin (qanuni nümayəndənin) www.mektebeqebul.edu.az saytında yaradılmış "Şəxsi Kabinet"indən çap olunmuş "Ərizə" daxildir. Azərbaycanda vətəndaşlığı olmayanlardan isə əlavə olaraq müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsi-(olduğu təqdirdə), Birləşmiş Millətlər Təşkilatının Qaçqınların İşləri üzrə Ali Komissarlığının Himayə Sənədi, xarici doğum haqqında şəhadətnamə (Azərbaycan dilinə tərcümə olunmuş variantda) tələb olunur.

Sənədlərin qəbulu sentyabrın sonunadək davam edəcək. Məktəbəhazırlıq qrupları ölkənin bütün şəhər və rayonlarında, müvafiq maddi-texniki bazası və kadr potensialı olan məktəblərdə təşkil olunur. Dövlət ümumtəhsil məktəblərində yaradılmış məktəbəhazırlıq qruplarına 5 yaşı həmin il tamam olmuş uşaqlar qəbul olunurlar. Məktəbəhazırlıq qruplarında təhsil dövlət hesabına həyata keçirilir. Müvafiq qanunvericiliyə uyğun olaraq, Təhsil Nazirliyinin icazəsi ilə bir sıra təhsil müəssisələrində məktəbəhazırlıq qruplarında təhsil ödənişli həyata keçirilə bilər.

Bu qruplarda gün ərzində 3, həftədə 4 gün olmaqla 12 məşğələ keçirilir. Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə müəyyənləşdirilib. Məktəbəhazırlıq qruplarında "Ətraf aləmlə tanışlıq", "Savad təliminə hazırlıq və nitq inkişafı", "Bədii təfəkkürün inkişafı", "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Təsviri fəaliyyət", "Musiqi", "Fiziki mədəniyyət" məşğələləri keçirilir. Dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qruplarında dərs ili iki yarımilə bölünür. Məktəbəhazırlıq qruplarında məşğələlər oktyabrın 1-də başlayıb, mayın 31-də başa çatacaq.

***Nailə Məhərrəmova***

## Magistraturaya qəbul planının 25 faizi boş qaldı

2018-2019-cu tədris ili üçün ali təhsil müəssisələrinin magistraturalarına qəbul planı 74.87 % dolub. 2104 plan yeri (25.13%) boş qalıb. Dövlət İmtahan Mərkəzindən SİA-ya verilən məlumata görə, 2018/2019-cu tədris ilində magistraturaya qəbul imtahanında iştirak etmək üçün ümumilikdə 12 387 bakalavr qeydiyyatdan keçib. I mərhələdə müsabiqə şərtlərini ödəyən və ixtisaslaşma seçimində iştirak edən 7293 bakalavrdan 6388 nəfəri respublika ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olub. Lakin qəbul olan bakalavrlardan təqribən 9%-i qəbul olduğu ali təhsil müəssisəsində qeydiyyatdan keçməyib. Magistraturanın boş qalan plan yerinin müsabiqəsində iştirak etmək üçün isə 631 bakalavr müraciət edib. Müsabiqə nəticəsində onlardan 448 nəfər magistraturaya qəbul olub.



Beləliklə, müsabiqənin nəticələrinə əsasən, bu il 6269 bakalavr (Azərbaycan bölməsi üzrə 5752, rus bölməsi üzrə 517) magistratura səviyyəsinə qəbul olunub. Onlardan 2250 nəfəri dövlət sifarişi əsasında təhsil almaq hüququ əldə edib.

Mərkəzdən bildirilib ki, magistraturaya qəbul 74 proqram üzrə aparılıb və proqramlar üzrə müsabiqə vəziyyəti müxtəlif olub. Belə ki, ayrılmış 8373 plan yerinə qeyd olunduğu kimi 6269 bakalavr qəbul olub. Lakin proqramlar üzrə ayrılmış plan yerlərinin dolma göstəriciləri fərqlidir: "Misal üçün, hidrometeorologiya, hava nəqliyyatında texnoloji proseslərin və istehsalatın təhlükəsizliyi mühəndisliyi, dağ-mədən mühəndisliyi, nəqliyyat servisi, kosmik texnika və texnologiyalar mühəndisliyi, silah və silah sistemlərinin istehsal texnologiyası, yanğın təhlükəsizliyi mühəndisliyi ixtisaslarına aid 12, 25, 29, 57, 60, 61, 71 saylı proqramlara ayrılmış plan yerləri 100% dolub. Ancaq nəzərə almaq lazımdır ki, bu proqramlar üzrə plan yerlərinin sayı az idi və onların tam dolacağı əvvəlcədən gözlənilirdi. Ən aşağı müsabiqə vəziyyətinin formalaşdığı dəmiryolu nəqliyyatı və təsərrüfatı mühəndisliyi, baytarlıq, filologiya və tərcümə, kitabxanaçılıq, dinşünaslıq, balıqçılıq, çoxişlənən malların texnologiyası mühəndisliyi sahələrinə aid 8, 30, 36, 39, 41, 43, 45, 51, 52, 72 saylı proqramlara ayrılmış plan yerlərinin 60%-dən çoxu boş qalıb. Bu proqramlar üzrə də plan yerlərinin dolmayacağı əvvəlcədən məlum idi. Belə ki, həmin proqramlar üzrə ixtisaslaşma seçiminə buraxılan bakalavrların sayı plan yerlərindən az idi. Say etibarilə ən çox bakalavrın müraciət etdiyi 26 (iqtisadiyyat) və 56 (MBA) saylı proqramlar üzrə də plan yerləri müvafiq olaraq 25.5% və 20.3% boş qalıb. Burada da ixtisaslaşma seçiminə buraxılanların sayı plan yerlərindən az olub".

# “Konvensiya Xəzəryanı dövlətlərin fəaliyyətində proqnozlaşdırılan sivil davranışı özündə ehtiva edir”



**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Aktauda keçirilmiş Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısının yekunlarına dair AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.**

***- Xəzər dənizi üzrə V Zirvə toplantısının nəticələri barədə nə deyərdiniz?***

- 2018-ci il avqustun 12-də Aktauda keçirilmiş V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusu üzrə Konvensiyanın imzalanması beş Xəzəryanı dövlət üçün tarixi hadisə və mühüm əhəmiyyətli nailiyyətdir. Bu, bir daha onu nümayiş etdirir ki, Xəzəryanı dövlətlər Xəzər hövzəsi və onun ətrafındakı regionlarda dayanaqlı sülh və əməkdaşlıq mühitinin təsbit olunmasında qəti əzmə malikdirlər. Konvensiya Xəzər dənizində dövlətlərarası münasibətlərin və davranışın hüquqi çərçivəsini müəyyən edir. Sənədin əsasını beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri, xüsusilə dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət kimi təməl prinsiplər təşkil edir.

Hüquqi rejimin və anlayışların müəyyən edilməsi ilə bərabər, Konvensiya bütün Xəzəryanı dövlətlərin fəaliyyətində aydın və proqnozlaşdırılan sivil davranışı özündə ehtiva edir. Xəzəryanı dövlətlər arasında qarşılıqlı etimada və əməkdaşlığa əsaslanan bu cür münasibətlər Xəzər dənizi dövlətləri, həmçinin tərəfdaşlar üçün vacibdir.

Xəzəryanı dövlətlər, həmçinin bu Konvensiyanın hazırlanması prosesində unikal regional mənsubiyyət, məsuliyyət və sahiblik kimi yüksək siyasi mədəniyyəti nümayiş etdirdilər. Xəzəryanı dövlətlər hər hansı kənar müdaxiləyə imkan vermədən birgə konstruktiv səylərlə Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyaya daxil olmaqla mühüm nailiyyətlərə imza atdılar.

***-Konvensiyanın razılaşdırılması prosesi üzv dövlətlər tərəfindən davamlı səylər tələb edirdi. Bu barədə fikirlərinizi bilmək istərdik.***

- Etiraf etməliyik ki, Konvensiyanın razılaşdırılmasının son mərhələsi heç də asan olmayan müzakirələrdən keçib. 2017-ci ilin dekabrında Moskvada keçirilmiş Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin ikigünlük iclası çox intensiv xarakter daşıdı və nəhayət ki, Konvensiyanın razılaşdırılması istiqamətində əsas irəliləyiş əldə olundu. Bir sıra müddəalar üzrə çox ağır müzakirələr keçdi. Amma xoş niyyətlə və qarşılıqlı etimad şəraitində aparıldığı halda, danışıqlar müsbət nəticə verir. Bütün bu müzakirələrin yekunu olaraq, Xəzəryanı dövlətlərin Aktauda keçirilmiş Zirvə toplantısında Konvensiya imzalanmaq üçün prezidentlərə təqdim olundu və biz bu nailiyyətə imza atdıq.

***- Bundan sonrakı addımlar nədən ibarət olacaq?***

- Ölkədaxili prosedurlara uyğun olaraq Konvensiya üzv dövlətlərin ratifikasiyasına təqdim ediləcək. Biz ümid edirik ki, Konvensiyanın ratifikasiyası tezliklə başa çatacaq. Ratifikasiya prosesinin başa çatması və Konvensiyadan irəli gələn müddəaların praktiki icrası regionun dayanaqlı inkişafı üçün daha geniş imkanlar açacaq. Konvensiya və Aktau Zirvə toplantısında dövlət başçıları tərəfindən qəbul edilmiş kommunikedə yeni vəzifələr və tapşırıqlar müəyyən olunub. Bütün Xəzər regionunun və xalqlarımızın gələcək mənafeyi naminə xoş niyyətə, dostluğa və əməkdaşlığa əsaslanan intensiv işimiz bundan sonra da davam etdiriləcək.

## Eldar İbrahimov: “Konvensiya beynəlxalq yükdaşımalarda ölkələrin payını artıracaq”



“Qazaxıstanın Aktau şəhərində Xəzər dənizinin hüquqi statusuna dair imzalanan Konvensiya tarixi anlaşmadır və Xəzər regionunda əməkdaşlığın inkişafına, eləcə də sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir. Bu Konvensiyanın imzalanmasında Azərbaycanın da rolu danılmazdır”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov deyib. Komitə sədri bildirib ki, 1992-ci ildən Xəzərin hüquqi statusu barədə konvensiya ilə bağlı sahil dövlətlərinin ikitərəfli və çoxtərəfli görüşləri öz məntiqi yekununa yaxınlaşdı: “Çünki indiyədək Xəzərin hüquqi statusuna hər bir dövlət milli maraqlarından çıxış edərək fərqli yanaşırdı. Azərbaycan sözügedən məsələ ilə bağlı danışıqların aparıldığı müddətdə Xəzərin beynəlxalq hüquq normaları və prinsipləri çərçivəsində ədalətli bölgüsünü təklif edib. Aktau Zirvə toplantısında sənədlərin imzalanması mərasimindən sonra prezidentlərin mətbuata bəyanatlarla çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də diqqətə çatdırdı ki, Azərbaycan bu sənədin hazırlanmasının bütün mərhələlərində konstruktiv işləyib və digər Xəzəryanı ölkələr kimi bu sənədin imzalanmasına öz töhfəsini verib”.

E.İbrahimovun sözlərinə görə, Xəzər dənizinin hüquqi statusuna dair konvensiyanın imzalanması 5 sahil ölkə üçün dönüş nöqtəsidir: “Yaranmış əməkdaşlıq mühiti beynəlxalq yükdaşımalarında Xəzəryanı ölkələrin payının artmasına mühüm töhfələr verməklə yanaşı, Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin inkişafına da əlavə stimul olacaq. Belə ki, Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev diqqətə çatdırdı ki, Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətləri uğurla inkişaf edir. Dövlətimizin başçısı bildirdi ki, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir“. Azərbaycanın Xəzərin ekoloji inkişaf, ekoloji sabitlik zonasına çevrilməsi istiqamətində mümkün olan hər şeyi etdiyini deyən deputat əlavə edib ki, ölkəmiz regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi işinə də öz dəyərli töhfəsini verməkdədir.

## Rüfət Məmmədov: “İlin sonunadək 5 ölkədə ticarət və şərab evi açılacaq”

Bu ilin sonunadək BƏƏ, Çin, Polşa, Qazaxıstan və Rusiyada Azərbaycanın ticarət və şərab evlərinin açılması nəzərdə tutulur. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov deyib. Nazir, həmçinin bu ilin 7 ayında qeyri-neft ixracının 14 faizə yaxın artdığını bildirib. Qeyd edək ki, Azərbaycanın ilk ticarət evi 2017-ci ildə Belarusda açılıb.



## Şahin İsmayılov: “Konvensiya Xəzəryanı ölkələr arasında əməkdaşlığın daha da genişlənməsinə təkan verəcək”



Yaxın gələcəkdə Xəzəryanı ölkələrin qarşılıqlı əməkdaşlığının daha da genişlənəcəyinin, təkcə neft-qaz sahəsində deyil, digər istiqamətlərdə də ortaq layihələrin həyata keçirilməsinin şahidi olacağıq. Xəzərin hüquqi statusuna dair Konvensiya Xəzəryanı ölkələr arasında əməkdaşlığın daha da genişlənməsinə təkan verəcək.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Şahin İsmayılov deyib. Şahin İsmayılov qeyd edib ki, avqustun 12-də tarixi hadisənin şahidi olduq. Artıq 1996-cı ildə başlanan danışıqlar öz məntiqi nəticəsini tapdı və Xəzərin hüquqi statusu müəyyənləşdi. Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsinin əhəmiyyətini bir neçə istiqamət üzrə dəyərləndirmək olar. Birincisi, Xəzəryanı ölkələrin uzun müddət apardıqları danışıqlar zamanı ortaya çıxan müəyyən ziddiyyətlər aradan qalxdı. Xəzəryanı ölkələr Xəzərin statusu ilə bağlı yekun bir qərara gəldilər. Bu, tarixi və siyasi hadisədir. İkincisi, artıq Xəzəryanı ölkələrin daha geniş şəkildə ortaq layihələr həyata keçirməsi asanlaşacaq. Bilirsiniz, müəyyən ziddiyyətli məsələlər mövcud idi. Bu məsələlərdə Xəzəryanı ölkələr razılığa gəldilər. Bir sıra yataqların birgə işlənməsi ilə bağlı perspektiv layihələrin şahidi olacağıq.

Milli Məclisin deputatı deyib: “Üçüncüsü, Xəzərə daha böyük investisiyaların cəlb olunmasını müşahidə edəcəyik. Bu investisiyalar həm neft-qaz yataqlarının birgə işlənməsi sahəsində, həm də Xəzərin turizm və nəqliyyat imkanlarından daha geniş şəkildə istifadə olunmasına gətirib çıxaracaq. Xəzərin olduqca böyük turizm və nəqliyyat imkanları var. Ona görə dövlət başçılarının imzaladığı sənəd Xəzərin bu imkanlarından gələcəkdə daha geniş istifadə olunmasına şərait yaradacaq”.

## AZAL Bakı-Tbilisi-Bakı aviareysini bərpa edir



Oktyabrın 28-dən etibarən “Azərbaycan Hava Yolları” (AZAL) aviaşirkəti Bakı-Tbilisi-Bakı marşrutu üzrə reysləri bərpa edəcək. “Azərbaycan Hava Yolları” QSC-nin mətbuat xidmətindən SİA-ya bildirilib ki, AZAL aviaşirkətinin reysləri baqajın, əl yükünün ödənişsiz daşınması və qidalanma daxil olan klassik daşıma sxemi üzrə həyata keçiriləcək.

Qeyd edək ki, 2017-ci ilin sentyabr ayından bu marşrut üzrə uçuşlar yalnız AZAL-ın struktur bölməsi olan “Buta Airways” aşağıbüdcəli aviaşirkəti tərəfindən baş tuturdu. AZAL aviaşirkətinin J2-223/J2-224 reysləri “Airbus A319/A320” tipli hava gəmiləri vasitəsilə həftənin çərşənbə axşamı və bazar günləri yerinə yetiriləcək. Uçuşlar Heydər Əliyev Beynəlxalq Aeroportunun 1-ci Terminalından həyata keçiriləcək. AZAL-ın “Klassik” reysləri sərnişinlərə milli aviadaşıyıcının marşrut şəbəkəsinə daxil olan digər şəhərlərinə tranzit uçuşları daha rahat planlaşdırmaq imkanı verəcək, həmçinin iş adamlarına adətən aşağıbüdcəli reyslərdə nəzərdə tutulmayan biznes-sinifdə yer əldə etmək imkanı yaradacaq.

# “Azərbaycan istənilən halda öz torpaqlarını işğaldan azad edəcək”



Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, YAP Siyasi Şurasının üzvü Musa Quliyevin yap.org.az-a müsahibəsi

***- Musa müəllim, öncə Milli Məclisin Səhiyyə komitəsində 2018-ci il yaz sessiyası dövründə görülən işlərlə bağlı məlumat verməyinizi istərdik. Hesabat dövründə hansı məsələlər müzakirəyə çıxarılıb?***

- 2018-ci ilin yaz sessiyası dövründə Səhiyyə Komitəsində “Dərman vasitələri haqqında” qanun layihəsinə əlavə və dəyişikliklər edilməsi məqsədilə işçi qrupu yaradılmış, Qanunun 19 maddəsinə 40-a yaxın əlavə və dəyişiklik edilmiş, layihə Milli Məclisin plenar iclasında müzakirə olunaraq qəbul edilmişdir. Səhiyyənin və müasir tibbin aktual problemlərindən biri olan donorluq və orqan köçürülməsi, xüsusilə meyiddən orqan köçürülməsi sahəsində hüquqi bazanın təkmilləşdirilməsi və genişləndirilməsi məqsədilə bu mövzuda mütəxəssislərin iştirakı ilə parlament dinləməsi keçirilmiş, işçi qrupu yaradılmışdır. Hazırda “Orqan və toxumaların transplantasiyası haqqında” Qanuna əlavə və dəyişikliklər üzərində iş aparılır. Payız sessiyasında işçi qrupunun təklifləri müzakirəyə təqdim ediləcək.

Yaz sessiyasında daha bir aktual problem - əhalinin optik vasitələrlə təminatının keyfiyyətinin yüksəldilməsi sahəsində olan çatışmazlıqların aradan qaldırılması və optika və optometriya xidmətini müasir tələblər və standartlar səviyyəsində qurmaq məqsədi ilə oftalmoloq və optikaçıların iştirakı ilə dinləmə keçirilmişdir.

***- Parlamentin Səhiyyə komitəsinin payız sessiyasının İş Planı barədə nə deyə bilərsiniz? Komitə tərəfindən parlamentin payız sessiyasının müzakirəsinə hansı məsələlərin çıxarılması nəzərdə tutulur?***

- Payız sessiyası başlayanda Komitəmizin ilk iclasında bu məsələlər müzakirə olunacaq və Komitə üzvlərinin təklifləri əsasında da iş planı tərtib ediləcək. Səhiyyə Komitəsinin gündəliyində olan və üzərində iş aparılan bir neçə Qanun layihəsinin adını çəkmək yerinə düşərdi. “Reproduktiv sağlamlığın qorunması haqqında” və “Psixoloji yardım haqqında” qanun layihələri parlamentin plenar iclasına təqdim oluna bilər. Yuxarıda haqqında bəhs etdiyimiz “Orqan və toxumaların transplantasiyası haqqında” Qanuna əlavə və dəyişikliklər də bu payız sessiyasında komitədə müzakirə olunaraq Milli Məclisə tövsiyə edilə bilər. Məlum olduğu kimi, gələn ildən icbari tibbi sığortanın ölkəmizdə daha geniş şəkildə tətbiq edilməsi nəzərdə tutulur. Bu məqsədlə qanunvericilikdə hüquqi bazanın genişləndirilməsinə ehtiyac var. Bu baxımdan, icbari Tibbi Sığorta Agentliyi ilə birgə dinləmə keçirilməsi və “Tibbi sığorta haqqında” Qanuna əlavə və dəyişiklik edilməsi məsələsi də payız sessiyasında gündəlikdə olacaq layihələrdəndir.

***- Musa müəllim, Ermənistanda cərəyan edən proseslər diqqət mərkəzindədir. Xüsusilə də, bu ölkədə siyasi-hüquqi xarakterli hadisələrlə bağlı müxtəlif fikirlər səsləndirilir. Bu ölkədə bir tərəfdən baş tutan həbslər, digər tərəfdən sosial-iqtisadi tənəzzül, nəhayət, Rusiya ilə münasibətlərdə meydana çıxmış problemlər ciddi müzakirə və mübahisə predmetinə çevrilib. Bu proseslərlə bağlı fikirləriniz nədən ibarətdir?***

- Ermənistan kimi cırtdan və gücsüz dövlətlər heç zaman müstəqil siyasət yürüdə bilmirlər, kiminsə vassalı, şəraitdən asılı olaraq əl maşası, yaxud qapazaltısı olurlar. Bu mənada, Ermənistan nəinki istisna deyil, tarix səhnəsində biabırçı bir nümunədir. Qafqaza ermənilərin köçürülməsi və Azərbaycan torpaqlarında erməni dövlətinin qurulması vaxtilə çar Rusiyasının müsəlman əhalinin yaşadığı İrana və Osmanlı İmperatorluğuna qarşı xristian buferi yaradılması məqsədi güdürdü. İndi də istər Qərb, istərsə də Rusiya Ermənistandan təzyiq vasitəsi kimi öz maraqları üçün istifadə edirlər. İşğalçı Köçəryan-Sərkisyan xunta rejiminin Ermənistanda hakimiyyətə gətirilməsi və uzun müddət iqtidarda qalması bir xarici gücün maraqlarına xidmət edirdisə, Paşinyanın ortaya çıxması və gözlənilmədən hakimiyyətə yiyələnməsi, görünür, ağaların əlcək dəyişməsi və vassalın ağa dəyişməsi prosesinin ifadəsidir. Hər halda fikrimcə, bu dəyişmədə ermənilər həmişə olduğu kimi yenə də alət rolunu oynamaqdadır. Əsas reallıq bundan ibarətdir ki, Ermənistanda ictimai-siyasi sabitlik pozulmuşdur və yaxın zamanlarda hadisələrin daha da kəskinləşməsinin şahidi ola biləcəyik. “Qarabağ klanı” deyilən Köçəryan-Sərkisyan bandasının iqtidardan və ölkədən qovulması prosesinə start verilmişdir. Amma nəzərə alaq ki, Ermənistan bütövlükdə kriminal bir dövlətdir və Paşinyan da faktiki olaraq çevriliş yolu ilə hakimiyyətə yiyələnmişdir. Onun hansısa demokratik hüquqi islahatlar aparacağına inanmaq lazım deyil.

Bəli, Ermənistan iqtisadi, siyasi böhran, sosial səfalət içərisindədir. Ölkədə yoxsulluq 30, işsizlik 20 faiz həddindədir, hər il Ermənistanı 50 min insan, özü də əmək qabiliyyətli əhali tərk edir və geriyə qayıtmır. Ölənlərin sayı doğulanların sayını üstələyir, Ermənistan qocalan və içərisindən çürüyən bir ölkə halındadır. Bu proses getdikcə dərinləşməkdədir. Paşinyan adminstrasiyasının Qərb qarşısında müxtəlif referanslar etməsinə baxmayaraq, ermənilərin Rusiyadan asanlıqla qopacağına inanmaq çox çətindir.

***- Prezident İlham Əliyev avqustun 1-də Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimində çıxışı zamanı Ermənistanın yeni hökumətinin əvvəlki kriminal xunta rejiminin səhvlərini buraxmamalı olduğunu diqqətə çatdırdı. Dövlət başçısı torpaqlarımız qayıtmayana qədər sülh olmayacağını və Ermənistanın yeni rəhbərliyinin bunu çox yaxşı başa düşməli olduğunu da xüsusi olaraq vurğuladı. Bu məsələlərlə bağlı nə düşünürsünüz?***

- Bəli, cənab Prezident İlham Əliyevin çıxışı zamanı Qarabağ məsələsi ilə bağlı söylədiyi fikirlər həm Ermənistanın yeni rəhbərliyinə, həm də dünya birliyinə bir mesaj idi ki, Azərbaycan istənilən halda öz torpaqlarını işğaldan azad edəcək, heç bir halda Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək. Ancaq Paşinyan hökuməti öz ölkəsinin və xalqının gələcəyini düşünürsə, konstruktiv mövqe nümayiş etdirməli, öz sələflərinin səhvlərini təkrar etməməlidir. Erməni rəhbərliyi anlamalıdır ki, Azərbaycanın ərazi bütövlüyü təmin edilməyənə, məcburi köçkünlər öz ata-baba torpaqlarına qayıtmayana qədər ədalətli sülhdən danışmaq olmayacaq. Ermənistan işğalçı siyasətini uzun zaman davam etdirə bilməyəcək. Müxtəlif bəhanələrlə danışıqlardan yayınan erməni rəhbərliyi anlamalıdır ki, danışıqları uzada bilərlər, amma Azərbaycan torpaqlarını uzun zaman işğal altında saxlaya bilməyəcəklər. Dünyanın ən güclü 30 ordusundan biri olan Azərbaycan Ordusu Ali Baş Komandanın əmrini gözləyir və bir həftə yetərlidir ki, bütün işğal olunan torpaqlarımızda üç rəngli bayrağımız dalğalansın. O gün uzaqda deyil. Lələtəpə və Günnüt əməliyyatları da bu həqiqəti əyani şəkildə göstərdi. Əgər onlar bu regionda yaşamaq istəyirlərsə, qonşuları ilə münasibətləri normallaşdırmalı, müxtəlif əsassız iddialardan əl çəkməlidirlər.

## Rumıniya və Bolqarıstan KİV-ləri Xəzər dənizinin hüquqi statusu ilə bağlı Konvensiyanın imzalanmasından yazır







Rumıniya və Bolqarıstan KİV-ləri Xəzər dənizinin hüquqi statusu ilə bağlı Konvensiyanın imzalanmasından yazır. AZƏRTAC xəbər verir ki, yazılarda Konvensiyanın Qazaxıstanda baş tutmuş Xəzəryanı dövlətlərin Zirvə toplantısı çərçivəsində imzalandığı bildirilir. Qeyd edilir ki, sənədi Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan prezidentləri imzalayıblar.

Konvensiya üzərində işlər 20 ildən çoxdur davam edib və Xəzər dənizinin su səthinin əsas sahəsi tərəflərin ümumi istifadəsində qalacaq, dibi isə ikitərəfli razılaşmalar əsasında, beynəlxalq hüquqa riayət olunmaqla qonşu dövlətlər arasında bölünəcək. Vurğulanır ki, Konvensiyaya əsasən digər dövlətlərin hərbi gəmiləri Xəzər dənizinə buraxılmayacaq.

# Azərbaycançılıq məfkurəsinə bağlı böyük sənətkar

***Avqustun 16-da anadan olmasının 93-cü ildönümü tamam olan Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə bütün yaradıcılığı ilə mənsub olduğu millətin yaddaşına hopmuş sənətkarlardandır. Fəlsəfi fikir tarixində özünəməxsus ideoloji bir xəttə malik müdrik şəxsiyyət, xalq şairi Bəxtiyar Vahabzadə əsrlər üçün əhəmiyyət kəsb edə biləcək əsərlərin müəllifi kimi yaddaşlarda iz salıb. Xalq şairi çoxşaxəli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr verən, bu istiqamətdə müstəsna xidmətləri olan tanınmış sənətkarlardandır. Onu, haqlı olaraq, çağdaş milli şeirimizin klassiki adlandırırlar. Azərbaycan şeirinin son yarıməsrlik tarixi təkamül prosesini Bəxtiyar Vahabzadə yaradıcılığı olmadan təsəvvür etmək mümkün deyil.***



B.Vahabzadə 1925-ci il avqustun 16-da Şəki şəhərində fəhlə ailəsində anadan olmuşdur. Kiçik yaşlarında ikən ailəsilə birlikdə Bakıya köçən Bəxtiyar burada orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır. O, universitetin aspiranturasında saxlanılmış, “Səməd Vurğunun lirikası” mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

### MÜDRİK BİR SƏSİN AZƏRBAYCANA OLAN SONSUZ SEVGİSİ

Sənətkar keçdiyi ömür yolunun hər mərhələsində böyük amalların və məsləklərin gerçəkləşməsində ömrünü şam kimi əritdi. “Şam əgər yanmırsa, yaşamır demək” - deyən şair bir ömrün keşməkeşli və əzablı yollarında yaşayarkən, yanmağın kökünü həyat eşqində və vətənə bağlılıqda dərk edirdi. Qətiyyətlə deyə bilərik ki, B.Vahabzadə qələmə güc verdiyi zamandan ideoloji xəttini milli məfkurəsi, vətənə sevgisi, torpağa bağlılığı ilə birləşdirib, bu komponentlərin əsasında dünyanın dərk edə biləcəyi əsərlərin müəllifi olur.

Zamanın ona diqtə etdiyi mövzuları özündən kənarlaşdırıb, xalqın milli-mənəvi dəyərlərinin çərçivəsində vətəninə xidmət göstərmiş şair, uzun bir yaradıcılıq yolunda ana dilinin saflığı, vətəninin bütövlüyü uğrunda mübarizə aparmışdır. B.Vahabzadə şeirlərinin fəlsəfəsində böyük bir hikmət dayanır. Bu hikmət Nizami Gəncəvi poeziyasından, Füzuli lirikasından, Şəhriyar şeiriyyətinin dilindən gəlirdi. Yaxın Şərq və Azərbaycan ədəbiyyatını dərindən bilən filosofların fikir dünyasını mənimsəyib və ədəbi cərəyanların əxz etdiyi ideologiyanı öyrənən B.Vahabzadə zamanla baş-başa buraxdığı ruhi dünyasının axarında milyonlarla insanların birləşməsinə nail oldu ki, bu da onun yaradıcılıq irsinə saysız insanların məhəbbət bəsləmələrindən irəli gəlirdi. İctimai fəaliyyəti, onun ədəbi fəaliyyətinə heç də təsir göstərməmiş, hər iki tərəfdən, məhz Bəxtiyar Vahabzadə olduğunu sübut edə bilmiş, dövrün hadisələri və tələbləri çərçivəsində yaradıcılığında özünə qarşı münasibət oyada bilmişdir. Müdrik bir səsin altında onun Azərbaycana olan sonsuz sevgisi eşidilir. Bu sevgi hissinin belə aşıb-daşması və alovlanması ikiyə bölünmüş vətən torpağının harayından, Qarabağ faciəsindən irəli gəlirdi. Şairin ictimai fəaliyyəti də zəngin və təqdirəlayiq olmuşdur. Azərbaycan Ali Sovetinin və Milli Məclisinin deputatı seçilmiş B.Vahabzadə xalqımızın həyatının ən çətin və mürəkkəb anlarında baş verən taleyüklü hadisələrə münasibətdə əsl vətənpərvər ziyalı mövqeyini nümayiş etdirmişdir. 20 Yanvar faciəsi törədilən zaman B.Vahabzadə faciənin törənməsini aydınlaşdırmaq, onun siyasi qiymətini vermək üçün əqidə dostlarını bir araya toplayıb çıxış edərək, possovet məkanında yaşadığımız dövr ərzində, sovet imperiyasına xidmət etmiş insanlara qarşı yürüdülən amansız siyasətin məğzini açmağa, onun hökmünün dərinliklərini xalqa təqdim etməyə cəhd etmişdir. B.Vahabzadə dövrünün şairi olsa da, zamanı qabaqlayan şəxsiyyətlər sırasındadır. Əqli düşüncəsini fəlsəfi görüşlərində əks etdirən şair 20 Yanvar faciəsinin, Qarabağ şəhidlərinin ağır və mübarizələrlə zəngin həyat yolunu, qaçqın-köçkün həyatı yaşayan insanların nisgil və kədərini poeziyasıda əks etdirmişdir. Lirik ovqatlı şairin düşüncəsindən axıb gələn görüşlərin əsasında ilahi eşq dayanır. Bu eşq bəşəri və dünyəvi bir eşqdir.

### KÖKSÜNDƏ AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ KÖK SALAN ŞAİR

B.Vahabzadə tədqiqatçı-alim kimi Azərbaycan elmi qarşısında xidmətlər göstərmişdir. Şifahi ədəbi irsimizin, klassik və müasir Azərbaycan ədəbiyyatının öyrənilməsi sahəsində axtarışlarının bəhrəsi olan əsərlərini elmi ictimaiyyət həmişə dərin maraqla qarşılamışdır. Azərbaycan dilinin saflığı, təmizliyi və zənginləşməsi uğrunda mübarizə onun yaradıcılığının mühüm istiqamətlərindən birini təşkil edir. Xalqının gücü ilə yazıb-yaratmış B.Vahabzadə Azərbaycan dilinə qarşı soyuq münasibət gördüyü zaman qələmini bu istiqamətdə kökləyib “Mənim ana dilim” şeirini yazaraq, bu şeirin arxasında bir şəxsiyyət kimi çıxış edib, ana dilinin qorunması, onun saflığının saxlanılması üçün bütün insanları - azərbaycanlıları anasına hörmət etdiyi kimi, ana dilinə də belə məhəbbət və ehtiramla yanaşmağa səsləyirdi. Müasir Azərbaycan ədəbiyyatının ən parlaq simalarından olan şair öz yaradıcılığı ilə bədii fikrimizin zənginləşməsində mühüm rol oynamışdır. Böyük söz ustası xalqımızın yüzillər boyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, adət-ənənələrimizin yaşadılması naminə, altmış ildən artıq bir müddət ərzində, yorulmadan yazıb-yaratmışdır. O, azərbaycançılıq məfkurəsi ilə dərindən bağlı olan və milli özünüdərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına dəyərli töhfələr vermişdir. Azərbaycan xalqının tarixinin qədim dövrlərdən bəri müxtəlif mərhələlərində baş vermiş hadisələr, böyük şəxsiyyətlərin parlaq simaları ustad sənətkarın diqqət mərkəzində dayanırdı. Onun hələ ötən əsrin 60-cı illərinin əvvəllərində qələmə aldığı “Gülüstan” poemasının həyat və fəaliyyətinə çox böyük maneələr yaradacağını bildiyi halda, bu əsəri qələmə almışdır. Azərbaycan dövlətçiliyinə və müstəqilliyinə daim can atan, ömrü boyu müstəmləkə əleyhinə çıxış edən şair tarixi materiallara söykənib, milli qəhrəmanlıq ənənələrini yaşadan əsərlərlə mütəmadi çıxış etmişdir. Babəkin ölümü, ona qarşı olan xəyanət tarixi materiallar əsasında B.Vahabzadəyə tam dəqiqliyi ilə məlum olduğundan, o, Səhl Sumbat kimilərin vətən eşqi ilə yaşayan insanlara qarşı olan münasibətini, birmənalı qarşılayaraq, onlara qəti şəkildə etiraz və nifrətini bildirirdi.

### DİLİMİZİN POETİK İMKANLARINDAN MƏHARƏTLƏ BƏHRƏLƏNƏN ŞAİRİN FƏLSƏFİ DÜNYASI

Azərbaycan ədəbiyyatının, bütövlükdə, XX əsr Azərbaycan ədəbi fikrinin görkəmli nümayəndəsi olan B.Vahabzadənin adı təkcə respublikamızda deyil, onun hüdudlarından çox-çox uzaqlarda tanınır. Şairin əsərləri - şeir kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən, ingilis, fransız, alman, fars, polyak, ispan, macar və keçmiş sovetlər birliyi xalqlarının dillərinə tərcümə edilib. B.Vahabzadə respublikamızın hüdudlarından uzaqlarda ölkəmizi layiqincə təmsil edərək, milli mədəniyyətimizin təbliği və ədəbi irsimizin dünyada tanıdılması naminə qüvvə və bacarığını əsirgəməmişdir. O, 70-dən artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi-publisist kitabın və yüzlərlə məqalənin müəllifidir. Şairin tariximizin bir çox hadisələrini canlandıran dram əsərlərinin gənc nəslin tərbiyəsində böyük rolu olmuşdur. Müasir həyatdakı ziddiyyətlərin, qarşıdurmaların və mənəvi sarsıntıların təsviri ilə yanaşı, yüksək, pak və ülvi hisslərin tərənnümü Vahabzadə dramaturgiyasında böyük məharətlə təcəssümünü tapmışdır. Onun pyesləri Azərbaycan və eləcə də, xarici ölkə teatrlarının səhnələrində uğurla tamaşaya qoyulmuş və müəllifinə geniş şöhrət gətirmişdir. Azərbaycan Akademik Dövlət Dram Teatrının səhnəsində onun “Vicdan”, “İkinci səs”, “Yağışdan sonra”, “Yollara iz düşür”, “Fəryad”, “Hara gedir bu dünya?”, “Özümüzü kəsən qılınc”, “Cəzasız günah”, “Dar ağacı” pyesləri tamaşaya qoyulub. O, tarixi və müasir mövzuda 20-dən artıq iri həcmli poemanın müəllifidir. Azərbaycan poeziyasında vətəndaşlıq ruhunun qüvvətlənməsində və sənətkarlıq imkanlarının genişlənməsində B.Vahabzadənin müstəsna xidmətləri vardır. Dilimizin poetik imkanlarından məharətlə bəhrələnən şair fəlsəfi məzmunlu lirikanın gözəl nümunələrini yaratmağa müvəffəq olmuşdur. Mənəvi ucalıq, dünya və zaman, təbiət və insan həyatının mənası haqqında düşüncələrlə zəngin poeziyası ədəbi ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmışdır. Şairin dərin lirizmi ilə səciyyələnən sözlərinə çoxsaylı mahnılar bəstələnmişdir.

### TÜRK DÜNYASINA TÖHFƏLƏR VERƏN ZİYALI

Bədii və elmi-publisistik yaradıcılığını ictimai-siyasi fəaliyyətilə üzvi surətdə əlaqələndirən şair türk dünyasına töhfələr vermiş ziyalı olaraq salnamələrə öz izini saldı. Bu fikirlərin hər biri onun xalqına, türk dünyasına olan sevgisinin aliliyindən irəli gəlir. B.Vahabzadə istər şeirlərində, istərsə də dram əsərlərində və poemalarında bir vətəndaş mövqeyini ortaya qoyub, hadisələrə obyektiv münasibət bəsləyərək, zamanın ixtiyarına verirdi. Məhz zamanla baş-başa qoyduğu fikir dünyasında insanlar onun kimliyini görə bildilər.

Qeyd edim ki, B.Vahabzadə 1950-ci ildən etibarən Azərbaycan Dövlət Universitetində müəllim, dosent və professor vəzifələrində çalışaraq, ömrünün yarım əsrdən artıq bir dövrünü ölkəmizdə təhsilin inkişafına həsr etmişdi. Bəxtiyar Vahabzadə ədəbi və elmi yaradıcılığı pedaqoji fəaliyyətlə uğurla əlaqələndirərək, uzun illər Bakı Dövlət Universitetinin professoru kimi Azərbaycanda yüksək ixtisaslı kadrların hazırlanmasına töhfələr vermişdir.

B.Vahabzadənin ədəbi-elmi və ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir. 1974-cü ildə əməkdar incəsənət xadimi adına, 1975-ci ildə respublika, 1984-cü ildə isə SSRİ Dövlət Mükafatlarına layiq görülüb. 1985-ci ildə ona Azərbaycanın xalq şairi fəxri adı verilib, 1995-ci ildə Azərbaycan xalqının milli azadlıq mübarizəsində xüsusi xidmətlərinə görə “İstiqlal” ordeni ilə təltif edilib. O, bir sıra orden və medallara, o cümlədən, Azərbaycan Respublikasının ali dövlət təltifi olan “İstiqlal” ordeninə layiq görülmüşdür.

Görkəmli şair, dramaturq və ədəbiyyatşünas, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, xalq şairi, əməkdar incəsənət xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, professor, Prezidentin fərdi təqaüdçüsü B.Vahabzadə ömrünün 84-cü ilində dünyasını dəyişib. B.Vahabzadə dünyası, onun işıqlı xatirəsi xalqımızın qəlbində daim yaşayacaq.

***ZÜMRÜD***

# Türkiyəyə qarşı ABŞ sanksiyaları - Vaşinqton təklənirmi?

## *Rəsmi Ankaraya dəstək artır*



Rəsmi Ankaranın amerikalı pastorunu həbsxanadan buraxmaqdan imtina etməsi ilə Vaşinqtonun Türkiyə əleyhinə sanksiya təhdidi gücləndi və nəticədə, həmin qərar verildi. Onu da xatırladaq ki, ABŞ Xəzinədarlığı hələ 2016-cı ilin oktyabrında protestant kilsəsinin pastoru, Fətullah Gülən qiyamına və PKK-ya maliyyə dəstəyi göstərən Endryu Bransonun həbsində "aparıcı rol"una görə iki türk nazirini sanksiya siyahısına daxil etmişdi və maraqlısı da budur ki, həmin qadağalar Türkiyədə həbsdə olan digər amerikalı vətəndaşlara şamil olunmur. Buradan, açıq-aydın görünür ki, rəsmi Vaşinqton Ankaraya qarşı ikibaşlı oyun oynamaqla, əslində, öz hegemonluğunu nümayiş etdirməyə cəhd göstərir. Baxmayaraq ki, Türkiyə, eyni zamanda, NATO-nun üzvüdür və bu alyans tərkibində ABŞ-ın da maraqlarını təmin edən bir sıra antiterror əməliyyatlarında iştirak edib, ABŞ prezidenti Donald Trampın bir rahibə görə iki ölkə arasında olan strateji əməkdaşlığa xələl vura biləcək addım atmaq qərarını verməsi düşündürücüdür.

Başqa tərəfdən, Türkiyə də, öz növbəsində, bu ölkədə baş verən 2016-cı il qiyamında, əsas tərəf olaraq iştirak etmiş Fətullah Gülənin ekstradisiyası ilə bağlı dəfələrlə ABŞ-a müraciətlər etmişdi. Hətta dövlətlərarası müzakirə komissiyası da yaradılmışdı ki, həmin problem həll edilsin. Ancaq təəssüf ki, ABŞ son anda Gülənin Türkiyəyə ekstradisiyasına "yox" dedi.

### Azərbaycan XİN: "Azərbaycan, hər zaman olduğu kimi, bütün sahələrdə qardaş Türkiyə xalqı və dövlətinə hərtərəfli dəstəyini davam etdirəcək"

Bu arada, vacib məqama toxunaraq, qeyd edə bilərik ki, qardaş ölkəyə qarşı tətbiq olunacaq sanksiya ilə bağlı, artıq rəsmi Bakının mövqeyi ortaya qoyulub. "Ölkəmiz Türkiyə ilə iqtisadi münasibətlərinə də xüsusi önəm verir və bu əlaqələrin inkişafına qarşılıqlı sərmayə qoyuluşları, ikitərəfli ticarət, regional və qlobal əhəmiyyətli enerji və nəqliyyat layihələrində iştirakla öz töhfəsini verməkdədir". Bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib. XİN rəsmisinin sözlərinə görə, Türkiyə iqtisadiyyatına sərmayə qoyuluşlarını davam etdirən Azərbaycan qardaş ölkənin iqtisadiyyatında yaxından iştirakını artırmaqdadır. "Azərbaycan Türkiyənin son illər həyata keçirdiyi meqa- layihələrin yaxın zamanlarda qardaş ölkənin və regionun iqtisadiyyatına, təhlükəsizliyinə əlavə imkanlar təmin edəcəyinə və sarsılmaz Türkiyə iqtisadiyyatının gələcəyinə tam əmindir", deyə qeyd edən Hikmət Hacıyev vurğulayıb ki, Azərbaycan, hər zaman olduğu kimi, bütün sahələrdə qardaş Türkiyə xalqı və dövlətinə hərtərəfli dəstəyini davam etdirəcək.

### Avropa Parlamentinin Türkiyə Forumundan ABŞ-ın tətbiq etdiyi sanksiyalarla bağlı Türkiyəyə dəstək verilib

Azərbaycanla yanaşı, artıq Avropa İttifaqı ölkələri də ABŞ-ın sanksiyalarına yönəldilmiş qərarlarını Türkiyəyə dəstək nümayiş etdirməklə veriblər. Misal üçün, Avropa Parlamentinin Türkiyə Forumundan ABŞ-ın tətbiq etdiyi sanksiyalarla bağlı Türkiyəyə dəstək verilib. Dəstək bəyanatında tətbiq edilən sanksiyaların qeyri-qanuni və Dünya Ticarət Təşkilatı qaydalarına zidd olduğu bildirilib.

Bəyanatda Türkiyə lirəsinin dəyərdən düşməsinin istehlakçılara və həyat standartlarına mənfi təsir etdiyi bildirilib.

### Angela Merkel: "Türkiyədə iqtisadi rifah hamımızın xeyrinədir"

Almaniya Kansleri Angela Merkel də Türkiyəyə dəstək mesajında bildirib ki, bu ölkədəki iqtisadi rifah Avropaya, yalnız səmərə verə bilər. Əks halda, sanksiyaların təsiri istər-istəməz, bu qitəyə də ciddi təsirlərini göstərə bilər: "Türkiyədə iqtisadi rifah hamımızın xeyrinədir, orada iqtisadi sabitliyin pozulması Avropanın xeyrinə olmayacaq". Merkel bildirib ki, Türkiyədəki vəziyyəti diqqətlə izləyirlər: "Yaxın müddətdə Ərdoğanla bu vəziyyəti müzakirə etmək üçün fürsətimiz olacaq".

### Rusiya, İran və Qətər də Türkiyəyə dəstək nümayiş etdirir

Daha bir maraqlı məqam son vaxtlar münasibətlərində kifayət qədər istilik yaranan Rusiyanın Türkiyəyə verdiyi dəstəyidir. Halbuki ABŞ Rusiyaya qarşı da sanksiyalar tətbiq edilməsi ilə bağlı qərar qəbul edib. Buna baxmayaraq, eyni aqibətləri yaşayan ölkələr, bu məsələdə də bir araya gələrək, bənzər mövzuda bəyanatlar səsləndirirlər. Nəzərə alsaq ki, İran və Qətər kimi dövlətlər də qardaş ölkəyə dəstəyini nümayiş etdirib, bu zaman hesab etmək olar ki, ABŞ prezidenti Donald Tramp sanksiya qərarından sonra yetərincə təklənib. Halbuki bu ölkələrə qarşı da ABŞ-ın sanksiya qərarları mövcuddur.

### Türkiyə XİN: "ABŞ tərəfində ciddi fikir ayrılıqları var"

Yeri gəlmişkən, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu rusiyalı həmkarı Sergey Lavrovla birgə mətbuat konfransında protestant kilsəsinin pastoru Endryu Bransonla bağlı ABŞ-la apardıqları danışıqlar barədə məlumat verib. Türk diplomat ABŞ-la bu məsələ ətrafında ciddi fikir ayrılıqlarının olduğunu bildirib.

"ABŞ tərəfində ciddi fikir ayrılıqları var. Yəni bu, təkcə bizdən qaynaqlanan problem deyil. Lakin bütün hallarda, Türkiyəyə qarşı tətbiq edilən sanksiyalar və təzyiqlər xaosa çevrilə bilər. Bu barədə səfir Boltona da öz fikrimizi çatdırmışıq. Branson isə, ev həbsindədir. Bununla bağlı vəziyyət dəyişməyib", deyə Çavuşoğlu qeyd edib.

### Rəcəb Tayyib Ərdoğan: "Daha çox çalışacağıq"

"Türkiyə ABŞ-dan idxal edilən elektrik məhsullarını boykot edib". Bu fikirləri isə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının 16-cı Simpoziumunda çıxış edərkən deyib. Ərdoğan bildirib ki, ABŞ-ın maliyyə sanksiyalarına qarşı edə biləcəkləri iki şey var: "Türkiyəyə qarşı açıq iqtisadi hücum var. Mütəşəkkil formada üstümüzə gəlirlər. Edə biləcəyimiz iki şey var: biri iqtisadi, digəri siyasi davranışdır. İqtisadiyyatın tələb etdiyi texniki tədbirləri gördük, görürük. Amerikanın elektrik məhsullarını biz boykot edəcəyik. Onların "Ayfon"u varsa, o biri tərəfdə "Samsunq" var. Öz ölkəmizdə "Vestel" var. Biz bunlardan istifadə edəcəyik. İşin arxasında başqa niyyətlər var. Özümüzə güvənirik. Biz sizinlə strateji ortaq deyilikmi? Somalidə bərabər olmadıqmı? Əfqanıstanda hər kəs bir tərəfə qaçarkən, orada bərabər qalmadıqmı? Kosovada bərabər olmadıqmı? Bəs bu etdiyiniz nədir? Nə etmək istəyirsiniz? Amma bunu bilin, bu millətin xarakteri saga-sola sovrulan deyil. Fabriklərimizi çox işlədəcəyik, sərmayələrimizə ara verməyəcəyik. Dünya qazan, biz çömçə. Daha çox çalışacağıq. Sağ olsunlar, Qərb dostlarımız zəng edir, görüşürük".

Nəticə etibarilə, belə qənaətə gəlmək olar ki, Türkiyə, ümumiyyətlə, maliyyə sanksiyaları qarşılığında əyilmək və təslim olmaq fikrində deyil. Belə ki, qardaş ölkənin aldığı mənəvi və siyasi dəstək bütün mənalarda gücünü artırır. Bu baxımdan, ABŞ-ın apardığı siyasət, əslində, amerikalılar üçün mənfi tendensiya yarada bilər. Hər halda, Qərb ölkələrinin, xüsusilə, Avropa ailəsinin Türkiyənin yanında olması, artıq özüözlüyündə, həmin faktorları ortaya çıxarmış olur.

***Rövşən NURƏDDİNOĞLU***

# "ABŞ tətbiq etdiyi sanksiyalarla tərəfdaşlarını itirə bilər"



"Sanksiyalar beynəlxalq münasibətlərdə dövlətlərə qarşı müəyyən məhdudiyyət gətirici vasitədir. Lakin bundan sui-istifadə etmək olmaz". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib. Müttəfiq, yaxşı münasibətlərə malik olan ölkələrə qarşı sanksiyaların tətbiqinin düzgün olmadığını deyən politoloq söyləyib ki, ikibaşlı ağac olan sanksiyanın bir tərəfi onun tətbiq edildiyi ölkəyə toxunursa, digər tərəfi isə onu tətbiq edən ölkəyə toxunur. Onun sözlərinə görə, ABŞ tərəfindən tətbiq edilən sanksiyalar təkcə İran, Rusiya, Türkiyəyə deyil, eləcə də ABŞ-ın özünə təsir edir: "ABŞ bazar və iqtisadi sifarişlərini itirir. Bu baxımdan ABŞ tərəfindən sanksiyaların həcmi genişlənərsə, bu, həmin ölkənin öz iqtisadiyyatına, eləcə də imicinə zərbə vura bilər. Belə olan halda, tərəfdaş ölkələrin itirilməsi üçün geniş şərait yaranar".

Q.Hüseynli söyləyib ki, ABŞ eyni zamanda özünə yaxın ölkə olan Kanadaya da sanksiya tətbiq edir: "Bu siyasət çox riskli və dövlətin özü üçün də ağır nəticələrə səbəb ola bilər. Sanksiyaların əksəriyyəti ölkələrin siyasi rejimlərindən daha çox sıravi vətəndaşlara ziyan vuraraq onların iqtisadi vəziyyətinin ağırlaşmasına səbəb olur. Bir sözlə ifadə etsək, son dövrlər dünya düzənində bir xaos hökm sürür".

Politoloq qeyd edib ki, sanksiya tətbiq edilən ölkələrdə yaranan gərginlikdən çıxmaq üçün addımlar atılır: "Dövlət onun üçündür ki, yaranan mürəkkəb şəraiti aradan qaldırsın və təcili tədbirlər görsün. Rusiya müəyyən tədbirlər görməyə çalışır. Düzdür, hazırda ölkədə inflyasiyanın artan sürətini dayandırmaq mümkün olmayıb. Bildiyiniz kimi Rusiyanın milli valyutası olan rubl hər an ucuzlaşmaqda davam edir". Rusiya üçün tətbiq olunan sanksiyaların ağır olduğunu diləgətirən politoloq vurğulayıb ki, əvvəllər sanksiyalar ayrı-ayrı şəxslərə tətbiq edilirdisə, indi bu sanksiyaların istehsal sahələrinə aid edilməsi vəziyyəti daha da ağırlaşdırır: "Son sanksiyalar ölkənin maliyyə sisteminə tətbiq edilib ki, bunun nəticəsində banklar, maliyyə bazarı, Rusiyanın xariclə alış-veriş işləri çox böyük çətinliklərlə üz-üzə qalıb. Rusiya tərəfindən bu problemlərin qarşısının alınması istiqamətində tədbirlər davam etdiriləcək. Lakin görülən işlərin tez bir zamanda effekt verəcəyi gözənilmir".

# Bu da Türkiyənin ABŞ-a cavabı - gömrük rüsumları artırıldı



Türkiyə ABŞ-dan idxal edilən məhsulların gömrük rüsumunu artırıb. Türkiyə mətbuatı xəbər verir ki, ABŞ-dan idxal edilən avtomobil, spirtli içki və tütünə tətbiq edilən gömrük vergisi artırılıb. Bu barədə Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan sərəncam imzalayıb. Sənədə əsasən, Türkiyəyə idxal edilən avtomobillərin gömrük rüsumu 120%, spirtli içkilərin gömrük rüsumu 140%, tütünün gömrük rüsumu isə 60% artırılıb. Bundan başqa ABŞ-dan idxal edilən kosmetika, düyü və kömürün də gömrük rüsumu artırılıb.Türkiyə prezidentinin yardımçısı Fuad Oktay Tvitter səhifəsində qeyd edib ki, bu addımlar ABŞ-ın Türkiyə iqtisadiyyatına hücumu ilə bağlı atılıb.

# PKK terrorçuları karxanaya hücum ediblər

Türkiyənin Adıyaman vilayətində PKK terrorçuları mərmər karxanasında çalışan işçilərə hücum ediblər. SİA xəbər verir ki, bölgədə təhlükəsizliyə cavabdeh olan hərbçilər hadisə yerinə gələrkən terrorçular yolu partladıblar. Hadisə nəticəsində iki əsgər yaralanıb.

# Müsavata qoyulan siyasi diaqnozlar reallaşır

## *Və ya İsa Qəmbər yenidən başqan olmaq üçün partiyanı parçalayır*

***Müsavat partiyasının, bir neçə il öncə, keçirilmiş sonuncu saxta qurultayından sonra partiyadaxili qarşıdurmalar fonunda cərəyan edən hadisələr elə həmin qondarma tədbir ərəfəsində verilən proqnozları reallaşdırmaqdadır. Belə ki, verilən proqnozlardan biri də bu idi ki, İsa Qəmbər başqanlıqdan gedərkən, Arif Hacılını ona görə öz yerinə təyin etdi ki, yəni başqanlıq seçkilərini onun üçün saxtalaşdırdı ki, yenidən başqan olmaq şansını əlində saxlasın. Məhz bu səbəbdən, dərhal "MSDM" adlı qurum yaradaraq, özünü bu qurumun sədri elan edən İ.Qəmbər növbəti qurultaya qədər siyasi arenada qalmaq üçün bundan münbit vasitə tapa bilməmişdi. İndi isə, növbəti qurultayın və başqanlıq seçkilərinin zamanı çatır və İ.Qəmbər köhnə postuna dönmək üçün yeganə çıxış yolunu partiyanı parçalamaqda görməkdədir. Daha doğru desək, onun istər partiyada, istərsə də müxalifət düşərgəsində "parçala və hökm sür" ənənəsi bu gün də davam edir. Baxmayaraq ki, Müsavatın sabiq başqanı ağır xəstəliyə düşar oldu və müalicəsini Almaniyada keçirdi, bütün bunlara rəğmən, onun yenidən başqan olmaq sevdası yenidən cücərməyə başlayıb.***



### Müsavat uzağı bir neçə nəfərlə öz ömrünü başa vuracaq

Əbəs deyil ki, son vaxtlar Müsavat partiyasını növbəti istefa dalğası bürüyüb. İstefaya gedənlər, bilavasitə partiyanın idarəçiliyində ciddi nöqsanların olduğunu deyir, rəhbərliyin ən adi problemlərin həllində aciz qaldıqlarını bildirirlər. Misal üçün, xatırlatmaq yerinə düşərdi ki, başqan müavini olmuş Elman Fəttah istefa verərkən, istefasını belə əsaslandırmışdı ki, artıq A.Hacılı partiyanı idarədilməz hala gətirib və hətta öz komandası ona qarşıdır. Və yalnız E.Fəttah deyil, digər müavinləri də A.Hacılının yatırmaz siyasətindən narazı olduqlarını gizlətmirlər. Əlbəttə, yalnız A.Hacılıya yaxın olan şəxslər, klan olaraq, onun ətrafında qalmaqda davam edirlər. Bu isə, həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, istefaların ardı-arası kəsilməyəcək, sonda Müsavat "bir həsir, bir Məmmədnəsir gününə dühəcək" deyimli siyasi təşkilat olaraq, yalnız klan üsul-idarəçiliyi fonunda - uzağı bir neçə nəfərlə ömrünü başa vurmalı olacaq.

### Tural Abbaslı: "Bu adamların düşüncə tərzi eyni deyil"

Onu da qeyd edək ki, bu gün bir çox sabiq müsavatçılar baş verənləri daha öncədən hiss etdiklərini deməklə bərabər, digər məsələləri də aydınlaşdırmağa çalışırlar. Məsələn, hazırda Ağ Partiya adlı təşkilat yaradan Müsavatın keçmiş "divan" üzvü Tural Abbaslı deyir edir ki, istefa verdiyi partiyada siyasi-məişət məsələləri zəminində qarşıdurmalar yaşanır. SİTAT: "Bu istefalar gözlənilən idi. Qurultaydan sonra Arif Hacılının formalaşdırdığı rəhbərlik və idarəetmə fəlsəfəsi partiyanı bu hala gətirməli idi. Hətta bundan da ağır olacağı proqnozlaşdırılır. Çünki rəhbərlikdə təmsil olunanların əksəriyyətinin idarəçilik təcrübəsi yoxdur. Partiyanı tanımırlar. Bu günə qədər əksəriyyət partiya rəhbərliyində təmsil olunmayıb. Bu vəzifəyə birdən-birə gətiriliblər".

Keçmiş müsavatçıya görə, A.Hacılının müavin təyin etdiyi şəxslər təsadüfi vəzifəyə gələnlərdir: "Onların heç birinin arasında, siyasi münasibətlər zəminində, fikir birliyi və ortaq mövqe olmayıb. Birdən-birə oturdulublar ora, partiyanı idarə etməyə çalışırlar. Amma bu adamların düşüncə tərzi eyni deyil. Arif Hacılı ilə divanda təmsil olunan insanlar dünənə qədər əks-mövqedə idilər. Qurultayda bəziləri məcburiyyətdən Arif Hacılını dəstəklədilər. Hacılı da mükafat kimi onları rəhbərliyə gətirdi".

### "Onlar bundan daha ağır vəziyyətin olacağına əmindirlər"

"Təcrübəsizlik, partiyanı tanımamaq və siyasi situasiyanı dəyərləndirə bilməmək ucbatından bu şəxslər indi partiyanı belə hala salıblar"-deyə qeyd edən Abbaslı hesab edir ki, o, Müsavat partiyasında daha ağır vəziyyətlərin baş alıb-gedəcəyinə əmindir: "Bundan daha ağır vəziyyətin olacağına əminəm. Sadəcə, partiyanın sıravi üzvlərinə ürəyim ağrıyır. Onlar illərini partiyaya həsr ediblər. Ancaq rəhbərliyin səriştəsizliyi ucbatından, partiya bərbad hala düşüb. Rəhbərlikdə təmsil olunanların 90 faizinin alt qurumlarda, rayon təşkilatlarında heç bir nüfuzu yoxdur. Onlar qəbul olunmurlar. Bu da partiyanı zəifledir. Acınacaqlı günlər hələ qabaqdadır".

*Rövşən RƏSULOV*

---

# "Nar" müştəri loyallığı indeksinə görə liderdir

Müstəqil araşdırma şirkətləri tərəfindən keçirilmiş araşdırmaların/sorğuların nəticələrinə əsasən, "Nar" mobil operatorunun müxtəlif parametrlər üzrə müştəri loyallığı indeksində əhəmiyyətli dərəcədə artım qeydə alınıb. Həyata keçirilən NPS (Net Promoter Score) göstəricisi və "Brand Tracking" araşdırmalarına görə, "Nar" mobil internet istifadəçilərinin sayındakı artım tempi üzrə mobil rabitə bazarında yüksək nəticəyə nail olub.

Beynəlxalq şirkət tərəfindən aparılmış araşdırmanın nəticələrinə əsasən, "Nar"ın müştəri loyallığı indeksində il ərzində 5,3 faiz artım müşahidə edilib. Sorğuya əsasən, mobil şəbəkənin keyfiyyəti, müştərilərin şəbəkəni öz dost və ailə üzvləri arasında istifadə etməsi, eləcə də, sərfəli tarif və qiymətlər həmin göstəricidəki artımın əsas səbəbləridir. Bundan başqa, "Nar" səsin keyfiyyəti, müştəri xidmətləri, genişləndirilmiş telekommunikasiya xidmətləri, zəng xidməti üzrə müştəri məmnuniyyəti göstəriciləri və əlverişlilik üzrə yüksək nəticə göstərib.

Digər müstəqil şirkət tərəfindən həyata keçirilmiş "Brand Tracking" araşdırmasına əsasən, "Nar" abunəçilərinin 66 faizi mobil operatorun qiymətlərinin daha sərfəli olduğunu düşünür ki, bu da müştəri qrupları (digər operatorların abunəçiləri ilə müqayisədə) arasında ən yüksək nəticədir. Abunəçilərin 84 faizi isə "Nar" şəbəkəsinin gələcəkdə istifadə ediləcək yeganə şəbəkə olduğu qənaətindədir. Bu rəqəm də mövcud operatorların abunəçilərindən ibarət respondent qrupları arasında ən yüksək göstəricidir. Əlavə olaraq, "Nar" brend potensialı indeksi (BPI) il ərzində 4 faiz, loyallıq indeksi isə 7 faiz artıb.

Operator mobil internet istifadəçilərinin sayında nəzərəçarpacaq artıma bütün ölkə ərazisi boyunca genişləndirilmiş 3G, 4G və LTE-A şəbəkəsi ilə yanaşı, abunəçilərə sərfəli qiymətə yüksəkkeyfiyyətli mobil internet paketlərini təqdim etməklə müvəffəq olub.

2017-ci ilin ikinci rübündə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testləri nəticəsində də "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olmuşdu. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirmiş və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanmışdı.

# Bu gündən havanın temperaturu qalxacaq

Bu gün ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən SİA-ya verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 21-24, gündüz 26-31, Bakıda gecə 22-24, gündüz 29-31 dərəcə isti olacağı gözlənilir. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-65 faiz təşkil edəcək.

Abşeronun şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) dəniz suyunun



temperaturu 23-24, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) isə 24-25 dərəcə isti təşkil edəcək. Şimal-şərq küləyi əsəcək.

Azərbaycanın rayonlarında avqustun 16-da hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 19-24, gündüz 29-34 isti, dağlarda gecə 10-15, gündüz 18-23 dərəcə isti təşkil edəcək. Tibbi-meteoroloji proqnoza görə, avqustun 16-da Abşeron yarımadasında iqlim normasına yaxın temperatur rejimi gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

### Kabildə partlayış nəticəsində azı 25 nəfər ölüb

Əfqanıstan paytaxtının qərbində yerləşən təhsil müəssisəsində baş verən partlayış nəticəsində həlak olanların sayı 25 nəfərə çatıb, 35 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. AZƏRTAC xəbər verir ki, Pajvak informasiya agentliyinin yaydığı məlumata görə, bunu ölkənin Səhiyyə Nazirliyinin rəsmi nümayəndəsi Vahid Məcruh bildirib. İnsident avqustun 15-də "Mawoud Academy" təhsil müəssisəsinin binasının daxilində baş verib. Partlayıcı qurğunun terrorçu-kamikadze tərəfindən işə salındığı bildirilir. Əfqanıstan Prezidenti Əşrəf Qani hadisə ilə bağlı təhqiqata başlamaq barədə göstəriş verib. Hələlik ölkədə fəaliyyət göstərən heç bir qruplaşma partlayışın məsuliyyətini öz üzərinə götürməyib.

### Bakıda Xəzər-Qara dəniz Yanacaq Forumu keçiriləcək

Oktyabrın 11-12-də Bakıda Xəzər-Qara dəniz Yanacaq Forumu keçiriləcək. SİA xəbər verir ki, "Sovremennaya AZS" ("Müasir yanacaqdoldurma məntəqəsi") jurnalının təşkilatçılığı ilə keçiriləcək forumunda Azərbaycanda yanacaq-energetika kompleksinin inkişafı üzrə dövlət siyasəti, neft emalı sahəsinin modernləşdirilməsi və sair məsələlər barədə məruzələr dinləniləcək. Tədbirdə SOCAR, həmçinin "Azpetrol", "LUKoil", "Shell", "Turkpetrol" və digər şirkətlər iştirak edəcək. Qeydd edək ki, jurnal Rusiyada fəaliyyət göstərir və əsasən yanacaqdoldurma məntəqələrinin, neft emalı müəssisələrinin fəaliyyətinin işıqlandırılması, bu sahədə tədbirlərin təşkili işi məşğul olur.

### Ermənistan Səhiyyə Nazirliyinə bomba qoyulub

Ermənistanın paytaxtında fövqəladə hadisə baş verib. SİA-nın erməni mətbuatına istinadən verdiyi məlumata görə, İrəvan sakini 911 telefon xidmətinə zəng edərək Səhiyyə Nazirliyinin inzibati binasına bomba qoyulduğunu bildirib. Ermənistan FHN-nin xilasedicиləri hadisə yerinə cəlb olunub. Xəbərdə deyilir ki, minaaxtaranlar və psixoloji xidmətin əməkdaşları hadisə yerindədir. Nazirliyin əməkdaşları təxliyyə edilib. Araşdırma aparılır.

# Paşinyan hakimiyyətini və Ermənistanı itirmək üzrədir

***Ermənistanın baş naziri Nikol Paşinyan avqustun 17-də ümumxalq mitinqi keçirməyə hazırlaşır. Hətta bir müddət öncə, bəlli olmuşdu ki, o, keçirdiyi hökumət iclasında aksiyaya adam yığmaq tapşırığını da verib. Belə ki, Paşinyan “məxməri inqilab” yolu ilə hakimiyyətə gəlişindən sonra ölkədə heç bir sahə üzrə irəliləyiş əldə edə bilməyib və xalqın ona olan etimadı itmək üzrədir. Xüsusilə, son günlər ölkə daxilində cərəyan edən ictimai-siyasi proseslər heç də küçədən gəlmiş baş nazirin reytinqinə işləmir.***




*Aşot Qriqoryan: “90% ziyalılar artıq narahat olmağa başlayıblar ki, nə baş verir?”*

**“Nikol Paşinyan suallara cavab verməli, bizləri inandırmalıydı ki...”**

Artıq erməni ziyalıları da narahatlıq və təlaş içində ölkənin məhvə doğru sürükləndiyini etiraf etməyə başlayıblar. Onlar Nikol Paşinyanın və komandasının eyforiyaya qapıldığını, eləcə də, ümumxalq mitinqi keçirməklə “inqilabçıların” nə etmək istədiklərini öyrənməyə çalışdıqlarını deyirlər. Məsələn, Avropa ermənilər assosiasiyası forumunun sədri, “Avropa-Asiya Maliyyə Mərkəzi” holdinqinin rəhbəri Aşot Qriqoryan “1in.am” saytının rusdilli bölməsinə açıqlamasında deyib ki, hələ baş nazirliyinin 100-cü günündə Nikol Paşinyan suallara cavab verməli, bizləri inandırmalıydı ki, o, seçilməmiş baş nazirdir və buna baxmayaraq, öz işinin öhdəsindən gələcək: “Gəlin səmimi olaq, kim ötən müddət ərzində öz həyatında iqtisadi dəyişiklik hiss edib? Düşünürəm ki, heç kim, həqiqəti gizlətmək olmaz. Artıq 90% ziyalılar artıq narahat olmağa başlayıblar ki, nə baş verir, hanı bizim yeni hökumətdən olan gözləntilərimiz, hanı inqilabdan dərhal sonra başlanılmalı olan iqtisadi bum?”








**“Mən də həmin insanlardan biriyəm və təəssüf ki, ümidləri doğrulmayan qrupa daxiləm”**

Göründüyü kimi, artıq erməni ziyalıları, eləcə də, xalqın digər zümrələri Paşinyan hökumətinin öz işinin öhdəsindən gələ bilmədiyini, əksinə, vəziyyətin daha da pisləşdiyini etiraf edir, bütün bunların fərqinə varmağa başlayırlar. Aşot Qriqoryan deyir ki, bu prizmadan yaxınlaşdıqda, hər yerdə şübhələrin yarandığını görə bilərik. “O cümlədən, mən də həmin insanlardan biriyəm və təəssüf ki, ümidləri doğrulmayan qrupa daxiləm” deyə Qriqoryan bildirib.

Forum sədrinə görə, onkarın ümidləri, nəinki doğrulmayıb və aylar keçdikcə, adamlar daha da pəjmürdə olacaqlar: “Nəticədə, təxminən sözdə inqilabaqədərki dövrə bənzər situasiya yaranacaq. İnqilabı isə, ona görə sözdə adlandırıram ki, göründüyü qədər bu, sadəcə, hakimiyyət dəyişikliyi idi - dəhşətli Serj Sarkisyan rejimi gənc və enerjili, ümidli insanlarla əvəzləndi, hansı ki, onlarda ümidlərdən başqa heç nə yoxdur, yəni onların nə elmləri, nə təcrübələri, nə də peşəkarlıqları mövcud deyil. Ən pisi isə budur ki, belə gənclər parlaq həyat yaşayan kimi, dərhal aşağıdan zirvəyə yüksəlirlər və özlərini izafi şəkildə qiymətləndirirlər ki, onlar ən vacib insanlardırlar və hər kəs onlarla hesablaşmalıdır”.

**“Belə vəziyyətdə davam edən hakimiyyət çox tez iflasa uğrayır”**

Aşot Qriqoryana görə, hakimiyyət eyforiya vəziyyətindədir və ən kiçik etiraza belə dözümsüz yanaşır, öz ünvanına qarşı səslənən obyektiv tənqidi belə qəbul etmir: “Belə vəziyyətdə davam edən hakimiyyət çox tez iflasa uğrayır və hakimiyyətə elə insanlar gəlməlidir ki, onlar, həqiqətən də, nəyi isə etməyi bacarırlar”.

Beləliklə, Ermənistanın yeni hakimiyyətinin mövcud vəziyyəti, artıq ziyalılar zümrəsi tərəfindən sərt şəkildə tənqidlərə və etirazlara məruz qalmaqdadır. Bu isə, əslində, Paşinyan hökumətinin, həqiqətən də, siyasi, sosial, iqtisadi və s. sahələri bürüyən böhrandan çıxa bilməməsi ilə əlaqələndirilir. Hər halda, baş verənlər gerçəkliyi əks etdirir və Nikol Paşinyanın avqustun 17-nə təyin elədiyi ümumxalq mitinqi onun zərərinə işləyə bilər. Çünki həmin mitinqdə ona suallar da ünvanlana və o da həmin sualları cavabsız qoya bilər. Nəticə etibarilə, həm də belə qənaətə gəlmək olar ki, Paşinyan, nəinki hakimiyyətini, eləcə də, Ermənistanı itirmək üzrədir.

***Rövşən RƏSULOV***

# "REAL" düşərgədaxili hücuma keçəcəkmi?

## *İlqar Məmmədovun əsas hədəfində olanlar AXCP və Müsavat partiyalarıdır*

***Hələ, sonuncu prezident seçkilərindən öncə, radikal müxalifət düşərgəsində yaşanan gərginliklər, xüsusilə, dağıdıcıların "boykot" taktikası üzərində dayanmalarına rəğmən, digər cinahın bu prosesə qoşulması qərarı bu arenanı bir neçə hissəyə bölmüşdü. Lakin digər bir məqam, AXCP və Müsavat partiyalarının ictimai-siyasi vəziyyətdən sui-istifadə edərək, düşərgədaxili təşəbbüsləri öz nəzarətlərinə götürmək cəhdləri idi. Düzdür, bunların heç biri baş vermədi, hətta AXCP sədri Əli Kərimlinin nəzarətində olan "Milli Şura", müxalifətin bütün tərəflərini mitinqə dəvət etsə də, həmin aksiya əvvəlkilər tək istənilən nəticəni vermədi. Bununla da, bir daha sübut olundu ki, ənənəvi müxalifət bir araya gələrsə belə, heç bir siyasi uğur əldə etmək iqtidarında deyil. Üstəlik, AXCP-nin əzəli düşməni kimi qiymətləndirilən Müsavat partiyası belə, "ümummüxalifət" aksiyasına qoşulsa da, düşərgənin acınacaqlı halı nəzərlərdən yayınmadı.***

### Daha bir "ana müxalifət" iddiaçısı

Ancaq ortada digər bir maraqlı nüans diqqətlərdən yayınmadı. Misal üçün, həmin vaxtlar sədri həbsə olan "REAL" hərəkatı (artıq hərəkat partiyaya çevrilib-R.N.) aksiyaya qoşulmaq çağırışlarına rədd cavabı verdi. Hətta qurumun aparıcı funksionerləri hesab edilən Natiq Cəfərli, Rəsul Cəfərov və başqaları, o zamanlar həbsdə olan İlqar Məmmədovla müzakirə aparıb, məsləhətləşdiklərini və ikincinin onlara "Milli Şura"nın mitinqlərinə qatılmamaq tapşırığı verdiyini mətbuata açıqladılar. Bu isə, ilk növbədə, belə bir təəssürat yaratdı ki, İlqar Məmmədov həbsdən çıxar-çıxmaz, əsas hədəf olaraq, AXCP və Müsavat partiyalarını götürəcək və bu partiyaların sıradan çıxarılması, "REAL"ın isə ana müxalifəti ələ keçirmək istiqamətində iş aparacaq. Əbəs deyil ki, "REAL"ın mitinqləri rədd etməsinin ardınca, sosial şəbəkələrdə bu qurumlara qarşı, sözün əsl mənasında, söyüş yağmuruna start verildi.

Hazırda, o da məlumdur ki, "REAL" Partiyasının sədri İlqar Məmmədov azadlığa buraxılıb və onun azadlığa buraxılması hər iki partiyanı - AXCP və Müsavat rəhbərliyini ciddi şəkildə narahat etməyə başlayıb. Ümumiyyətlə, həm Əli Kərimlinin, həm İsa Qəmbəri və Arif Hacılının İlqar Məmmədovu həzm etməməsi, eləcə də, onun azadlığa çıxması siyasi opponent olaraq, onların məhv edilmək təhlükəsinin mövcudluğu məsələsini gündəmə gətirib.

### İlqar Məmmədov həbsdə ola-ola Əli Kərimlini necə üstələmişdi?

Misal üçün, onu da xatırlatmaq olar ki, sosial şəbəkələrdə AXCP sədri Əli Kərimli ilə REALın sədri İlqar Məmmədov arasında virtual səsvermə kampaniyası keçirilmişdi. Bu kampaniyada İlqar Məmmədov Əli Kərimlini xeyli üstələmişdi. Bunun ardınca, AXCP və "REAL" qruplarının bir-birlərini ən ağır ittihamlara məruz qoymaları, onsuz da, gərgin olan vəziyyəti daha da gərginləşdirdi. Ona görə də, bütün bunlardan sonra daha çox simasızlıq təsiri bağışlayan Əli Kərimlinin REALı "Milli Şura"nın mitinqlərinə dəvət etməsi qətiyyən səmimiyyət təsiri bağışlaya bilməzdi. Məsələ, həm də ondadır ki, tərəflər daim bir-birlərini hakimiyyətə işləməkdə günahlandırmaqla, necə deyərlər, vəziyyətdən çıxmağa çalışıblar. Burada da məqsəd özlərini daha çox müxalifətçi göstərmək istəyi olub. Məsələn, Ə.Kərimli virtual səsvermə zamanı uduzduğunun fərqinə vardıqdan sonra heç bir sübuta və əsasa söykənməyən belə bir dırnaqarası fərziyyə irəli sürmüşdü ki, guya hakimiyyət İ.Məmmədovun virtual səs yığmasında müəyyən yardımlar göstəribmiş (?!- R.N.).




### "REAL"ın payız planları - qarşısına çıxan müxalifət partiyasını məhv etmək

Ancaq bunun belə olmadığını elə "REAL"ın icraçı katibi Natiq Cəfərli bu arqumentlərlə rədd etmişdi: "Yəni onlar çox bəsit ritorikadan istifadə ediblər. Bu dəfə də, belə iddiaların səslənməsi, açığı, REAL-ın və İlqar Məmmədovun nüfuzuna kölgə salmaq məqsədi daşıyırdı. Təəssüf ki, yenidən qarşı tərəfin aqressiyası, səviyyəsiz, aşağılayıcı sözləri ilə üzbəüz qaldıq".

Lakin həmin ittihamların və qarşıdurmaların hər birindən İlqar Məmmədovun bixəbər olması absurd görünə bilər. Ona görə də, hələlik, danışmayan, ancaq bir müddət sonra mətbuat konfransı keçirərək, fikirlərini ictimailəşdirəcəyini deyən "REAL" sədrinin qarşısında dayanan əsas məqsədin ona mane olacaq tərəfləri, xüsusilə, AXCP və Müsavatı hədəfə alacağı bəri başdan məlumdur. Bu baxımdan, hesab etmək olar ki, yay mövsümü başa çatar-çatmaz ənənəvi və radikal müxalifət düşərgəsində kəskin dəyişikliklərin yaşanacağı proqnozlaşdırıla bilər.

*Rövşən NURƏDDİNOĞLU*

---

# Mais Səfərli: "Onlar indi də İlqar Məmmədovu çıxdaş etmək üçün bənzər addımlara gedəcəklər"



"REAL" partiyasının sədri İlqar Məmmədovun həbsdən çıxması onun özünün də təmsil olunduğu radikal müxalifət düşərgəsində, müəyyən mənada, diskomfort yaradıb. Belə ki, onun azadlıqda olmasını, qarşılarına çıxmış baryer kimi qiymətləndirən radikal düşərgə "liderləri," sözdə başqa cür desələr də, əməldə ciddi təlaş keçirməyə başlayıblar.

Sözügedən məsələ ilə bağlı "SƏS" qəzetinə münasibətini bildirən "Yurddaş" partiyasının sədri Mais Səfərliyə görə, doğurdan da, müxalifət düşərgəsində belə bir narahatlıq var. "İlqar Məmmədov daim Qərbin müəyyən dairələrinin diqqət mərkəzində olub",- deyə qeyd edən partiya sədri bildirib ki, xaricdə Azərbaycanı istəməyən, hər zaman Azərbaycan dövlətinin əldə etdiyi uğurlara qısqanclıq hissi ilə yanaşan qüvvələr olub və indi də mövcuddur: "Məhz həmin qüvvələr də İlqar Məmmədova diqqət yetiriblər. Burada məqsəd ondan ibarətdir ki, guya onun simasında Azərbaycanda insan haqlarının pozulmasını dilə gətirirlər. Əslində isə, bu, absurd bir məsələdir. Çünki hər kəs çox gözəl bilir ki, İlqar Məmmədov konkret əməllərinə və qanun pozuntularına görə, həbs olunub. İstintaqda da bu barədə konkret araşdırmalar aparıb və bütün bunlar sübuta yetirilib".

Mais Səfərli, onu da qeyd edib ki, bu gün radikal müxalifət düşərgəsində böyük üstlük var: "Sadəcə olaraq, onların gözləri Qərbdə olan dairələrdədir ki, həmin xarici qüvvələr bunlara nə isə bir tapşırıq versinlər. O da sirr deyil ki, radikal müxalifət düşərgəsinin "liderləri" bu gün özlərini xaricdə olan qüvvələrə reklam etmək üçün hər cür əmələ əl atırlar. Ümumiyyətlə, hər kəs çox gözəl bilir ki, sözügedən düşərgəni təmsil edən qüvvələr, bütövlükdə, heç bir gücə malik deyillər. Yəni Azərbaycanda heç bir siyasi proseslərə təsir edə biləcək müxalif fikirli liderlər və qüvvələr yoxdur. Bu günə qədər də ölkəmizlə bağlı məkrli planları heç vaxt həyata keçməyib və keçməyəcəkdir. Çünki belə bir ambisioz və şəxsi mənafelərinə xidmət göstərən müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur".

Partiya sədri, sonda onu da qeyd edib ki, radikal müxalifət düşərgəsində heç vaxt səmimi və mehriban münasibətlər olmayıb: "Onlar bir-biri ilə mehriban düşmən olublar və bir-birlərinin səmərəsi üçün heç bir addıma getməyiblər. Radikal müxalifətin bu cür vəziyyətə gəlib çıxması və siyasi arenada bu qədər cılızlaşmalarının səbəblərindən biri də, məhz müxalifət düşərgəsində partiya sədrləri arasında olan birincilik uğrunda olan savaşdır. Bu tipli partiya sədrləri öz düşərgələrində birinci olmaq uğrunda biri digərini sıradan çıxarmaq üçün hər cür əmələ əl atırlar. Yəqin ki, indi də onlar "REAL" partiyasının sədri İlqar Məmmədovu çıxdaş etmək üçün bənzər addımlara gedəcəklər".

*Gülyanə AĞAKƏRİMOVA*

---

# Qanunsuz yolla keçirilən qaz balonu aşkar edilib



Dövlət Gömrük Komitəsi (DGK) qanunsuz yolla keçirilən xeyli sayda qaz balonu aşkar edib. DGK-dan SİA-ya verilən məlumata görə, Balakən Gömrük İdarəsinin "Mazımçay" gömrük postunda Türkiyə Respublikasından Azərbaycan Respublikasına idxal gömrük proseduru altında daxil olan yük avtomobili "HCVG vizual - Smiths Detection" yoxlama-baxış sistemindən keçirilib və bu zaman monitorda yük-müşayiət sənədlərində göstərilən mallarla uyğun olmayan təsvirlər görünüb.

Türkiyə vətəndaşının idarə etdiyi "Renoult" markalı yük nəqliyyat vasitəsinə təkrar baxış zamanı, gömrük orqanına bəyan olunmayan 63 ədəd "Freon(r) ;404A" markalanma yazısı olan qaz balonları aşkar olunub. Faktla bağlı araşdırma aparılır.

# Telefon aşkarlanaraq götürülüb



Gömrükçülər qanunsuz yolla keçirilən mobil telefonlar aşkarlayıb. DGK-dan SİA-ya verilən məlumata görə, Tovuz Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olan əməliyyat məlumatı əsasında, idarənin "Sınıq Körpü" gömrük postunda Azərbaycan vətəndaşının idarə etdiyi avtomobil saxlanılıb və nəqliyyat vasitəsinə gömrük baxışı həyata keçirilib. Baxışdan öncə, sürücü üzərində və idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilmiş hər hansı predmetin olmadığını bildirib.

Yoxlama zamanı nəqliyyat vasitəsinin salonunda, sürücü qapısının örtüyü altında gizlədilmiş 2 ədəd "Samsung Galaxy J5", 2ədəd "Samsung Galaxy J2" və 1ədəd "Samsung Galaxy A6" markalı mobil telefonlar aşkar olunub. Faktla bağlı araşdırma aparılır.

# Avtobus 3 yaşlı körpəni vuraraq öldürdü

Bakıda ölümlə nəticələnən avtobus qəzası baş verib. SİA xəbər verir ki, hadisə Xətai rayonu, Nəsrəddin Tusi küçəsi 15-in qarşısında qeydə alınıb. Belə ki, gündüz saat 13:00 radələrində 1968-ci il təvəllüdlü Şuriyyə Həsən oğlu Həsənovun idarə etdiyi 62 saylı xətt avtobusu 2015-ci il təvəllüdlü Aygün Kənan qızı Binnətovanı vurub. Körpəni xəstəxanaya çatdırsalar da, onun həyatını xilas etmək mümkün olmayıb. Faktla əlaqədar Xətai RPİ-nin İstintaq şöbəsində cinayət məcəlləsinin 263.2-ci maddəsiylə cinayət işi başlanıb və sürücü istintaqa cəlb olunub.

# Ailə hüququnun mahiyyəti

***Ailə hüququna görə nikah qadın və kişi arasında könüllülük əsasında, ailə qurmaq məqsədi ilə, müvafiq icra hakimiyyəti orqanlarında qeydə alınan müqavilədir. Qanunvericilik nikah münasibətində olmayan ailə üzvləri arasındakı münasibətləri ailə hüquq münasibəti hesab etmir və şübhəsiz ki, bu qrupdan olan şəxslərin hüquq və vəzifələri hüququn digər sahələrinin normaları ilə tənzimlənir. Son dövrlər qəbul edilmiş qanunlarımızda ailə üzvlərinin hüquqlarının qorunmasına xüsusi fikir verilir. Konstitusiyamıza əlavə və dəyişikliklərin edilməsi, məişət zorakılığının qarşısının alınması haqqında qanunun qəbulu və s. yeniliklər dövlətin ailəni həmişə diqqət mərkəzində saxlamasını şərtləndirən əlamətlərdəndir. Azərbaycan Respublikası Konstitusiyanın 17-ci maddəsinə əsasən, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur.***

Hüquq elmləri doktoru İsaxan Vəliyev yazır: "Həmin maddədə daha sonra qeyd edilir ki, valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlət himayəsindədilər və onların hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. Dövlət konstitusiyanın bu ümumi müddəasından doğan vəzifələrin yerinə yetirilməsi, ailə və uşaqlara qayğının daha da ön plana çəkilməsi məqsədi ilə məişət zorakılığının qarşısının alınması haqqında qanun qəbul etdi. Bu qanunun əsas vəzifəsi yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə, məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən etmək və tənzimləməkdən ibarətdir. Təcrübə göstərir ki, ailə hüququnda bir sıra münasibətlərin, o cümlədən, atalığın müəyyən edilməsi, əmlak bölgüsü, nikahın pozulması və etibarsız hesab edilməsi, alimentin qanuni və ədalətli müəyyənləşdirilməsi, habelə, nikah müqaviləsinin bağlanması məsələlərində xalqın marifmülkiyyəti sayılır. Nikaha daxil olanadək onlara məxsuz olan əmlak, habelə, nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak ər və arvadın hər birinin ayrıca mülkiyyəti hesab edilir. Zinət əşyaları istisna olmaqla, fərdi istifadə şeyləri nikah zamanı ər-arvadın ümumi vəsaiti hesabına əldə edilsə də, ər ya arvaddan hansının istifadəsində olubdursa, ona məxsusdur".

Ər və arvadın mülkiyyətinin müqavilə rejimi isə əmlak bölgüsünün digər qaydalarını müəyyənləşdirir. Nikah müqaviləsi nikaha daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və nikah pozulduqda ər və arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən sazişdir. Nikah müqaviləsi nikahın bağlanmasının dövlət qeydiyyatına qədər, eləcə də, nikah dövründə istənilən vaxtda bağlana bilər. Nikah müqaviləsi yazılı formada bağlanmalı və notariat qaydasında təsdiq olunmalıdır.

İ.Vəliyevin qeyd etdiyi kimi, Azərbaycan Respublikasının Ailə Məcəlləsində valideynlərin və uşaqların hüquqlarının müdafiəsi problemlərinə də xüsusi yer ayrılmışdır. Qanuna görə, 18 yaşına çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxslər uşaq hesab olunurlar. Hər bir uşaq ailədeyn himayəsindən məhrum olunan və tərbiyə, mualicə, əhalinin sosial müdafiəsi müəssisələrində yerləşdirilən uşaqların valideynlərindən də aliment tutulur və həmin müəssisələrin hesabına keçirilir. Əgər uşaq əmək qabiliyyətli deyildirsə və yetkinlik yaşına çatmışdırsa, valideynlər belə övladları da saxlamağa borcludurlar.

Qanunvericilik, nəinki valideynlərin övladlarını saxlamaq vəzifələrini, habelə, yetkinlik yaşına çatmış övladların valideynlərini saxlamaq vəzifəsini də tənzimləyir. Əmək qabiliyyəti olan yetkinlik yaşına çatmış övladlar maddi yardıma ehtiyacı olan, əmək qabliyyəti olmayan valideynlərini saxlamağa və onlara qayğı göstərməyə borcludurlar. Valideynlərin öz valideynlik vəzifələrini yerinə yetirməməsi məhkəmə tərəfindən müəyyən olunduqda, valideynlik hüquqlarından məhrum edildikdə, uşaqlar valideynlərini saxlamaq və aliment ödəməkdən azad edilirlər. Qanunvericilik valideyn-uşaq münasibətlərində onların biri-birini saxlamaq vəzifələrini tənzimləməklə yanaşı, ailənin başqa üzvlərinin aliment öhdəlikləri məsələlərini də diqqətdə saxlamışdır: qardaş və bacıların yetinlik yaşına çatmayan və ya əmək qabiliyyəti olmayan qardaş və bacıları, baba və nənənin nəvələri, nəvələrin baba və nənəni, yetirmələrin öz faktik tərbiyəçilərini, ögey oğul və qızların ögey ata və ananı saxlamaq vəzifəsi qanunvericilik qaydasında təsbit edilmişdir.

Dövlət ailə üzvlərinin hüquq və azadlıqlarını yalnız ailə qanunvericiliyi ilə deyil, həm də cinayət qanunvericiliyi ilə tənzimləyir. Cinayət Məcəlləsinin 22-ci fəsli yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlərə həsr edilmişdir. Yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə, əxlaqsız əməllərə cəlb etmə, özgənin uşağını dəyişdirmə, qanunsuz olaraq övladlığa götürmə, övladlığa götürmə sirrini yayma, uşaqlara və ya valideynlərə kömək göstərməkdən qərəzli tərzdə boyun qaçırma cinayət qanunu ilə cazanlandırılan əməl hesab edilir.

Ailə hüququ isə nikahdan doğan münasibətlərdən yaranan ailə üzvləri arasında olan münasibətləri sonsuz ictimai münasibətlər sistemindən ayıraraq, öyrənən bir elmdir.

Azərbaycan ailəsinin digər xalqların ailələrindən fərqliliyi millətimizə xas olan ailə ənənələrinin və ailə dəyərlərinin qorunub-saxlanmasıdır. Şərq və Qərb dəyərlərini özündə birləşdirən, eləcə də, milli-mənəvi dəyərlərə söykənən Azərbaycan xalqının ailə institutunun qorunub-saxlanılması, möhkəmləndirilməsi üçün bütün vətəndaşlar üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlməlidirlər. Milli adət-ənənələrimizi özündə yaşadan ailələrimizdə valideyn-övlad, böyük-kiçik münasibətlərinin düzgün qurulmasına və uşaqların milli dəyərlərə bağlılıq ruhunda tərbiyə olunmasına hər bir qadın xüsusi diqqət yetirməlidir. Ailənin xoşbəxtliyi onun möhkəmliyindən asılıdır. Bu möhkəmliyin yaranmasında isə əsas vəzifə qadının üzərinə düşür.

Ölkəmizdə ailədə problemlərin artmasına səbəb olduğu mənfi məqamlar daha ciddi bir sosial problem olma mərhələsinə gəlib çatmayıb. Ancaq son illərdə mənfi tendensiyaların artması bu prosesin ölkəmiz üçün də ciddi bir sosial problemə çevrilə bilmə təhlükəsinin mövcud olduğunu göstərir. Bu baxımdan, qeyd etmək lazımdır ki, müasir dövrdə Azərbaycan ailələrində problemlərə səbəb olan faktorların ciddi təhlil olunmasına və qabaqlayıcı tədbirlərin görülməsinə ciddi ehtiyac duyulur.

Qloballaşmanın tüğyan etdiyi bir zamanda, bu təmayüllərin qarşısının qətiyyətlə alınmasına çalışmasaq, Azərbaycan ailəsi ciddi təhlükələrlə qarşılaşar.

Yuxarıda qeyd olunan problemlər gənclərin nikah və ailə həyatına hazırlaşdırılmasının təşkilinin aktuallığını və ehtiyacını bir daha təsdiqləyir. Bu, ona görə vacibdir ki, bugünkü gənclər sabahın ata və analarıdırlar. Onlardan gələcək nəsillərin tərbiyəsi asılıdır, çünki uşağın şəxsiyyət kimi formalaşmasında ailə tərbiyəsinin rolu böyükdür. Ailə tərbiyəsindəki boşluqlar cəmiyyətə baha başa gəlir, buna görə də, gənclərin gələcək atalıq və analıq öhdəliklərinə hazırlaşdırılmasını aktivləşdirmək lazımdır. Ailə bağları heç kəsi heç nədən çəkindirmir. Müasir dünyanın ən böyük itkilərindən biri də nəsillərin yadlaşmasıdır. Bundan da həm uşaq, həm də qocalar qarşısında məsuliyyətin itməsi yayğın bir hala çevrilib, baxmayaraq ki, uşaqların da, qocaların da ailədə olması bizim münasibətlərin harmoniyasına daxildir. Ailəni bir mənəvi dəyər kimi geri qaytarmaq 21-ci əsrin ilk nəslinin üstünə düşür. Gənclərin nikaha hazırlaşdırılması nikah və ailə münasibətləri mədəniyyətinin bütün komponentlərini əhatə etməlidir. Burada gənclərin yaşı, təhsil səviyyəsi və cinsi nəzərdə tutulmalıdır. Gənclərin azad ailə həyatına hazırlaşdırılmasının son məqsədi - nikaha və ailəyə mənəvi cazibədarlığı geri qaytarmaqdır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Anomal istilər hələ 5 il davam edəcək

İqlimşünas-mütəxəssislər təcrübədən keçirdikləri yeni metodikadan sonra bu nəticəyə gəliblər ki, ciddi şəkildə istiləşmə qaçılmazdır. Növbəti 5 ildə Yer kürəsində anomal istilər davam edəcək. İqlimi qabaqcadan xəbər verən yeni alətin yaranması ilə məşğul olan Fransa və Hollandiya mütəxəssisləri bu qənaətdədirlər.



AZƏRTAC Rusiya saytlarına istinadla xəbər verir ki, proqnozlar statistikaya əsaslanıb. Məhz statistika Yer kürəsində ekstremal hadisələrin başvermə ehtimallarını, onların təkrarlanma tezliyini hesablamağa imkan yaradır. Alimlər son 50 ildə iqlimin necə dəyişməsini təhlil ediblər və bunun əsasında müəyyən nəticələrə gəliblər. 2016-2017-ci illər üçün xarakterik olan anomal dərəcədə yüksək hərarət yaxın 5 ildə də davam edəcək. Bununla yanaşı, okean üçün proqnoz daha uzunmüddətli dövrü nəzərdə tutur. İqlimşünaslar hesab edirlər ki, bütün bunlara səbəb irəliləyən qlobal istiləşmədir. İqlim planetdə 2022-ci ildən tez olmayaraq normallaşa bilər.

## Vyana yaşamaq üçün ən rahat şəhər elan edilib

Avstriyanın paytaxtı Vyana Amerikanın "The Economist" jurnalı tərəfindən hər il tərtib edilən yaşamaq üçün ən rahat şəhərlərin reytinqinə başçılıq edir. AZƏRTAC Interfax informasiya agentliyinə istinadla xəbər verir ki, şəhərlər səhiyyə, sabitlik, mədəniyyət, təhsil və infrastrukturun inkişafı kimi kateqoriyalara əsasən qiymətləndirilib. Vyana 100 mümkün baldan 99,1 bal toplayıb. Siyahıda ikinci yerdə Avstraliyanın Melburn şəhəri (98,4 bal), üçüncü yerdə isə Yaponiyanın Osaka şəhəri (97,7 bal) qərarlaşıb. Maraqlıdır ki, Vyana və Kopenhagendən başqa, reytinqin ilk onluğuna daxil olan şəhərlərin hamısı Avstraliya, Kanada və Yaponiyada yerləşir.



Siyahıda dünyanın ən böyük meqapolisləri - Paris, London və Nyu-York müvafiq olaraq 19, 48 və 57-ci yerləri tutub. Bu şəhərlərdə cinayətkarlıq səviyyəsi yüksək olsa da, ictimai nəqliyyat daha çox yüklənsə də, səhiyyə sahəsi yaxşı inkişaf edib, mədəni həyat zəngindir, əməkhaqqı isə yüksəkdir.

Dünyanın ən pis şəhərləri isə Nigeriyanın Laqos (38,5 bal), Banqladeşin Dəkkə (38 bal) və Suriyanın Dəməşq (30,7 bal) şəhərləridir. Onlar reytinqdə 138-140-cı yerləri tutur. Həmçinin antireytinqə Pakistanın Kəraçi, Liviyanın Tripoli və Seneqalın Dakar şəhərləri də daxil edilib.

## Subaşiç Xorvatiya millisindən getdi



Xorvatiya millisinin üzvü Daniyel Subaşiç yığma karyerasını başa vurub. Bu barədə Xorvatiya Futbol Federasiyasının rəsmi saytı xəbər yayıb. Qeyd edək ki, "Monako"nun qapıçısı millidə 44 oyun keçirib. 33 yaşlı qapıçı son dünya çempionatında finala qədər irəliləyən Xorvatiya millisində inamlı çıxış ilə yadda qalıb.

## "İnyesta "Barselona"ya qayıdacaq"

"Barselona"nın sabiq futbolçusu Andres İnyesta yenidən Kataloniya klubuna qayıdacaq. Qol.az-ın məlumatına görə, bunu klub prezidenti Xosep Bartomeu "Marca"ya açıqlamasında deyib. O, təcrübəli müdafiəçiyə klubda vəzifə veriləcəyini bildirib: "O, "Barselona"da oyunçu karyerasını bitirib, ancaq digər işlərin həlli üçün qayıdacaq. Biz artıq İnyesta ilə bu barədə danışmışıq. O, "Barselona" ilə birdəfəlik vidalaşmayıb". Qeyd edəkk ki, "Barselona"nın yetirməsi olan olan 34 yaşlı futbolçu 20 il Kataloniya klubunun şərəfini qoruyub. Ötən mövsümün sonunda isə o, Yaponiyanın "Kobe" klubuna keçib.




## Zidan Mourinyonun yerinə göz dikib



"Real"ın sabiq baş məşqçisi Zinəddin Zidan yenidən işləmək arzusundadır. Qol.az-ın "L`Equipe" nəşrinə istinadən yaydığı xəbərə görə, fransız mütəxəssis bu İngiltərə Premyer Premyer Liqası klublarından birini çalışdırmaq istəyir. Hətta Təcrübəli çalışdırıcının "Mançester Yunayted"in sükanı arxasına keçmək istədiyi iddia olunur. Ancaq Fransa mətbuatı onun bu arzusunun qışdan tez gerçəkləşə biləcəyini mümkünsüz hesab edir. Qeyd edək ki, Zidan ötən mövsümün sonunda "Real"dan istefa verib.

## Misirdə futbol azarkeşlərinə matçlara stadionda baxmağa icazə verilib

Misirli futbol azarkeşləri 2012-ci il sentyabrın 1-dən sonra ilk dəfə matçlara stadionlarda baxa biləcəklər. AZƏRTAC xəbər verir ki, bu barədə açıqlama verən Misirin gənclər və idman naziri Əşrəf Sobhi bu qərarın ölkənin Nazirlər Sovetinin təsdiqindən sonra qəbul edildiyini deyib. Nazir bildirib ki, misirli azarkeşlərin tribunalara qayıtması məsələsi ölkənin Futbol Assosiasiyası və klubların təmsilçiləri ilə də razılaşdırılıb.



İlk mərhələdə stadionlara beş minə qədər adam buraxılacaq. Ə.Sobhi azarkeşlərin stadionlara buraxılmasını dəstəklədikləri üçün Müdafiə və Daxili İşlər nazirliklərinə təşəkkürünü bildirib.

Qeyd etmək lazımdır ki, 2012-ci ilin fevralında Port-Səid şəhərindəki stadionda faciəli insidentdən sonra Misirdə stadionlara giriş qadağan olunub. Həmin vaxt ev sahibi "Əl-Məsri" və Qahirənin "Əl-Əhli" klubları arasında keçirilən matç zamanı tribunalarda baş verміş kütləvi dava və basabas nəticəsində 70 azarkeş həlak olmuşdu.

## Fernando Alonso ilin sonunda Formula 1 idmanında karyerasını başa vuracaq



Formula 1 üzrə ikiqat dünya çempionu, ispaniyalı pilot Fernando Alonso karyerasını başa vurmağa hazırlaşır. "McLaren" komandasının sürücüsü cari çempionat başa çatdıqdan sonra Formula 1 idmanı ilə vidalaşacaq. AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, 37 yaşındakı pilot "McLaren"in internet səhifəsində yer alan açıqlamada qeyd edib: "Bu qeyri-adi idman növü üzrə keçirdiyim 17 gözəl ildən sonra həyatımda dəyişiklik etməyin və yoluma yeni macəra ilə davam etməyin vaxtı çatıb".

Formula 1 karyerasında birlikdə çalışdığı şəxslərə təşəkkürlərini bildirən pilot deyib: "Bir neçə ay əvvəl mövsümün sonunda karyeramı başa vurmağı qərara aldım. Ona görə də builki çempionatda həmişə olduğundan daha çox əzmlə mübarizə aparacağam. Sonda hansı nəticəyə nail olacağımı görəcəyik. Hazırda həyatımın ən xoş anlarını yaşamağıma baxmayaraq, özümdə yeni macəralara başlamaq ehtiyacı hiss edirəm".

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**